**Abstract.** Interactive teaching methods, regarded as one of the most advanced educational technologies, are considered essential tools for all participants in the teaching and educational process. When applying interactive methods, students acquire new knowledge based on their interests and active participation, approach lessons creatively, and retain the acquired knowledge more effectively and for longer periods. This article explores the essence of interactive teaching methods and discusses how students, under the guidance of the teacher and through carefully selected key learning materials, develop the ability to understand and internalize content more easily. The process involves identifying cause-and-effect relationships and patterns within facts and events, drawing conclusions, and making significant generalizations. The article also outlines various forms that can be used to organize instruction through interactive methods. It emphasizes that the use of interactive technologies in the learning process reduces the cognitive load of future preschool educators, allows for more diverse approaches to teaching, and encourages their active engagement in social interactions.

**Keywords:** preschool education, preschool teacher training, competencies of preschool educators, interactive methods.

**DOI:** 10.30546/2709-2488.2.2025.0020
**To cite this article:** Aliyeva S. (2025). Opportunities for using interactive learning methods in the professional training of future educators-teachers. *Journal of Preschool and Primary Education*, Vol. 251, Issue II, pp. 25-35.
**Article history:** received – 10.04.2025; accepted – 15.05.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# GƏLƏCƏK TƏRBİYƏÇİ-MÜƏLLİMLƏRİN PEŞƏ HAZIRLIĞINDA İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ İMKANLARI

**Sədaqət Əliyeva**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: aliyevasadaqat.29@mail.ru
https://orcid.org/ 0009-0008-6202-0070

**Annotasiya.** Ən yeni texnologiyalardan biri sayılan interaktiv təlim metodları təlim və tərbiyə prosesinin bütün tərəfləri üçün zəruri vasitə hesab edilir. İnteraktiv təlim metodlarından istifadə zamanı tələbə öz marağına və fəaliyyətinə əsasən yeni biliklərə yiyələnir, dərsə yaradıcı yanaşır, qazandığı bilikləri möhkəm mənimsəyir və uzun müddətli yadda saxlayır. Məqalədə interaktiv təlim metodlarının mahiyyətindən, tələbələrin müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, ən vacib təlim materialının asan başa düşülən və mənimsənilmə prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənməsi imkanları izah olunur.

Məqalədə təlim prosesində interaktiv metodlarla işi təşkil etmək üçün istifadə edilə bilən müxtəlif formalardan bəhs edilir. Qeyd olunur ki, təlim prosesində interaktiv texnologiyaların istifadəsi gələcək tərbiyəçi-müəllimlərin zehni yükünü azaldır, fəaliyyət formalarını dəyişdirməyə imkan verir və onları ictimai münasibətlər sistemində aktiv qarşılıqlı fəaliyyətə təşviq edir.

**Açar sözlər:** məktəbəqədər təhsil, tərbiyəçi-müəllim hazırlığı, tərbiyəçi-müəllimin kompetensiyaları, interaktiv metodlar.

**DOI:** 10.30546/2709-2488.2.2025.0020
**Məqaləyə istinad:** Əliyeva S. (2025). Gələcək tərbiyəçi-müəllimlərin peşə hazırlığında interaktiv təlim metodlarından istifadə imkanları. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (251), səh. 25-35.
**Məqalə tarixçəsi:** göndərilib – 10.04.2025; qəbul edilib – 15.05.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Ali təhsilin müasirləşdirilməsi, sosial tələblər və tələbatlar nəzərə alınmaqla mütəxəssis hazırlığının məzmununun və strukturunun yenilənməsini, təhsilin elmi səviyyəsinin, onun innovativ rolunun yüksəldilməsini nəzərdə tutur. Təhsilin keyfiyyətinə yeni tələblər və onun təmin edilməsi zərurəti, cəmiyyətin sosial inkişafından, kommunikasiya sistemlərinin təkmilləşməsindən, elmlərin zənginləşməsindən və yeni pedaqoji texnologiyaların yaradılmasından irəli gəlir.

Prezident İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda səriştəli pedaqoji kadr hazırlığı məsələsi təhsilin qarşısına bir vəzifə olaraq qoyulmuşdur. Təhsil Strategiyasında göstərilir: "... təhsil innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.... Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir. Müvafiq stimullaşdırıcı mexanizmlər və səmərəli monitorinq sistemi vasitəsilə müəllim fəaliyyətinin keyfiyyəti artırılmalıdır" ["Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"., 2013].

Gələcək tərbiyəçi-müəllimlərin effektiv hazırlığı texnologiyanın təhsilə inteqrasiyasını nəzərdə tutur. Texnologiya interaktiv təlim oyunlarından və təhsil proqramlarından tutmuş multimedia təqdimatlarına qədər müxtəlif yollarla öyrənmə və inkişafı dəstəkləmək üçün istifadə edilə bilər. Gələcək tərbiyəçi-müəllimlər texnologiyaları bilməli, onları məktəbəqədər təhsilə effektiv şəkildə inteqrasiya etməyi, uşaqların tərbiyəsində və təhsilində bunlardan bir vasitə kimi istifadə olunmasını bacarmalıdır.

## Əsas hissə / Main part

Peşəkar tərbiyəçi-müəllim bacarıqlı, hazırlıqlı uşağın tərbiyəsi və təhsili deməkdir. Bugünkü uşaqlar dünənkindən, sabah isə bugünkündən daha hazırlıqlı, daha bilikli olmalıdırlar. Peşəkar tərbiyəçi-müəllimlər uşaqların öyrənmə və inkişafının, keyfiyyətli təhsil almasının təmin edilməsində mühüm rol oynayırlar. Tərbiyəçi-müəllimin yüksək səriştəliliyi və peşəkarlığı onun, uşaqların hərtərəfli inkişafını dəstəkləyən təlimatları bilməsi, yeni metod və üsulları, texnologiyaları

öz fəaliyyətində tətbiq etməyi bacarmasıdır.

Pedaqoji təmayüllü ali məktəblər, məktəbəqədər təhsil müəssisələri üçün kadr hazırlığında tədris prosesində fəal və interaktiv təlim metodlarının tətbiqinə daha çox üstünlük verməlidir. Belə metodların tətbiqi tədrisin və digər tərbiyəvi, maarifləndirici tədbirlərin keyfiyyətinə müsbət təsir göstərir.

Məktəbəqədər təhsil müəssisələri, yetişən gənc nəslin gələcək inkişafı, fəaliyyəti, akademik uğurları üçün ilkin və mühüm mərhələdir. Bu mərhələ uşaqlarıın gələcək həyatında, fəaliyyətində mühüm əhəmiyyət kəsb edən, təməl bilik və təcrübələr verən, onları həyata hazırlayan bir dövrdür. Məktəbəqədər təhsil müəssisələrində uşaqlar erkən savad təliminə və nitq zənginliyinə yiyələnir, sadə riyazi təfəkkürə, məntiqi təfəkkürə malik olur, sosial-emosional bacarıqlara, ətraf aləm haqqında biliklərə yiyələnirlər. Bu baxımdan, məktəbəqədər təhsil müəssisələri üçün peşəkar kadrların hazırlığı tələb olunur.

Məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsinin keyfiyyətli təşkili üçün pedaqoji kadrların hazırlığına xüsusi diqqət göstərmək, gələcək tərbiyəçi-müəllimlərin yüksək səriştəlilik və peşəkarlığa nail olmasını təmin etmək zəruridir. Gələcək tərbiyəçi-müəllimlərin peşəkar hazırlığının məzmunu, metodiki səviyyədə özünə məsuliyyətlə yanaşmanı, biliklərə, bacarıqlara, vərdişlərə inteqrativ yiyələnməni ehtiva edir. Bu, onlara pedaqoji fəaliyyətdə, həmçinin sosial-pedaqoji təcrübədə imkanlarından, qavranılmış bilik və bacarıqlarından məhsuldar istifadə etmək imkanı verir. Gələcək tərbiyəçi-müəllimin peşə hazırlığında tələblərin reallaşdırılması, əsasən, yeni pedaqoji texnologiyaların tətbiqi yolu ilə həyata keçirilir, onun əsas xüsusiyyəti, təhsilin bütün elementlərinin uyğunlaşma dərəcəsi hesab edilir.

Tərbiyəçi-müəllim hazırılığında ənənəvi, fəal və interaktiv metodlardan geniş istifadə olunur. Ənənəvi təlim metodlarının tətbiqi zamanı müəllim daha fəal olaraq yeni bilikləri izah edir, tələbələr isə öyrənirlər. Ənənəvi təlim metodlarını metodlar sırasından çıxarmaq haqsızılıq olar. Metodların pisi və yaxşısı olmur. Metodlardan düzgün və düzgün olmayan qaydada istifadə etmək olur. Bu metodlardan tədris prosesində, kadr hazırlığında uzun illər istifadə edilmiş və ənənəvi dediyimiz metodlar bir çox qabaqcıl müəllimlərin yaradıcı təfəkkürü ilə təkmilləşdirilmiş, yeniliklərlə zənginləşdirilmiş və müsbət əlavələrlə bunlardan istifadə olunaraq dəyərli pedaqoji kadrlar hazırlanmışdır.

Fəal və interaktiv təlim metodu ölkədə, ilk dəfə olaraq 1993-cü ildən Azərbaycan Dövlət Universitetinin "Yaradıcı istedad" Respublika Elmi-Praktik Mərkəzinin təşəbbüsü ilə Bakı Avropa Liseyində "Fənlərarası təlim proqramı" layihəsi çərçivəsində tətbiq edilməyə başlanmışdır.

Fəal təlim metodları müəllim-tələbə, tələbə-müəllim münasibətidir. Belə təlim prosesində hər iki tərəf fəaldır. Müəllim öyrətdiyi kimi, tələbə də suallar

verir, öz biliyini, bacarığını genişləndirir, dəqiqləşdirir və təkmilləşdirir. Əgər ənənəvi təlimdə biliklər, əsasən, müəllim tərəfindən aşılanırsa, fəal təlimdə üstünlük tələbələrin fəaliyyətinə verilir. Tələbələr daim axtarışda olur, fikirlərini aydın şəkildə şərh edir, əldə etdikləri bilikləri tətbiq etmək bacarığına yiyələnirlər. Fəal təlim metodları, eyni zamanda, dərsdə fənlərarası əlaqələrin yaradılmasına, tələbələrin digər fənlərə marağının güclənməsinə səbəb olur.

Fəal təlimdə motivasiyanın düzgün qurulması, tədqiqat sualının qoyulması xüsusilə vacib məqamdır. Bu, tələbələrdə düşündükləri problemin həllini tapmaq, qarşıya qoyulmuş məqsədə çatmaq, istədiyinə nail olmaq kimi yüksək bacarıqlar formalaşdırmaq üçün şərait yaradır. Qurulan motivasiya, hər bir tədqiqat sualı tələbələrin öz düşüncə tərzlərini nümayiş etdirmələrinə imkan yaratmalıdır.

İnteraktiv təlim metodları daha geniş auditoriyanı əhatə edir. Belə metodların tətbiqində müəllim-tələbə, tələbə-tələbə, tələbə-müəllim münasibətləri əsasdır. Belə metodlar daha praktik və əlverişlidir.

Ənənəvi, fəal və interaktiv metodları sxem şəklində aşağıdakı kimi göstərə bilərik:



Eramızdan əvvəl təqribən 551 – 479-cu illərdə yaşamış Çin mütəfəkkiri Konfutsi belə demişdir. "Desən unudaram, göstərsən yadımda qalar, etsəm öyrənərəm".

1998-ci ildən başlayaraq interaktiv təlim texnologiyası anlayışı təhsil sahəsində özünə mükəmməl yer tutmağa başladı. Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramı həyata keçirilməyə başlanıldı və bu proqramda fəal və interaktiv təlim üsullarının məktəbə gətirilməsi işi vacib sahə elan olundu. Bu məqsədlə respublikamıza fəal və interaktiv təlim üsullarını tətbiq edən ölkələrdən mütəxəssislər dəvət olundu. Onların təşkil etdiyi treninqlərə orta məktəb müəllimlərinin böyük bir qismi müəyyən vaxtlarda cəlb olundu. Bunun nəticəsi olaraq demək olar ki, təhsil həyatında belə metodlarla tədris edən çoxsaylı müəllim kontingenti yarandı. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nda göstərilən demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirməyə və təlim keyfiyyətinin yüksəldilməsinə şərait və əlverişli imkanlar yaratmaq üçün interaktiv təlim metodlarının tədris prosesinə daxil edilməsi zəruri hesab edildi.

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nda göstərilən prinsiplərin həyata keçirilməsində 1998-1999-cu illərdən başlayaraq bir sıra dövlət (Təhsil Nazirliyi, Bakı Şəhər Baş Təhsil İdarəsi) və beynəlxalq qeyri – dövlət təşkilatları (UNİCEF, Dünya Bankı, SOROS Fondu və s.) tərəfindən ilk addımlar atılmışdır.

"İnteraktiv pedaqogika" ifadəsi alman tədqiqatçısı Hans Fritsin adı ilə bağlıdır. O, bu termini, ilk dəfə 1975-ci ildə işlətmişdir. Hans Frits öz tədqiqatlarında interaktiv prosesin məqsədini bu proses iştirakçılarının davranış modelini dəyişdirmək və yaxşılaşdırmaq kimi vermişdir. O, bu metodlar haqqında interaktiv tərbiyə prosesi kimi danışır. Belə ki, alimə görə təlimdə interaktivliyi müəllim və tələbə arasında qarşılıqlı təsir – əməkdaşlıq qabiliyyəti kimi izah etmək olar. İnteraktiv təlimdə başlıca məqsəd tələbəni təlimin subyekti etməkdir.

Göründüyü kimi, interaktiv təlim tərbiyə prosesinin bütün tərəfləri üçün zəruri sayılır. Hər bir tələbənin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar yenilənir. Beləliklə, psixoloji abu-hava dəyişir. Qrupdakı zəif tələbələr də müzakirədə fəal iştiraka qoşulur, məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində bir-birini dinləməyə alışırlar. Tələbələr hər hansı bir təlim tapşırığını həll edərkən tədqiqatçılığa yönəldilir, problem həlletmə bacarıqlarını təkmilləşdirilir.

Bu təlim tələbələrin fəal idrak fəaliyyətinə və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlığa əsaslanır.

İnteraktiv təlim metodları ən yeni texnologiyalardan biri kimi təlim və tərbiyə prosesinin bütün tərəfləri üçün zəruri sayılır. İnteraktiv təlim metodlarının mahiy-

yəti ondan ibarətdir ki, tələbələr müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər. Əgər tələbə istəyinə və fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, bu zaman o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətli və möhkəm mənimsəyir.

İnteraktiv təlimin tətbiq edilməsi tələbələrin özünə inamını artırır, şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırır, oxumağa olan münasibəti daha müsbət edir, biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, onlardan məqsədlərinə çatmaq üçün istifadə etmək vərdişlərini formalaşdırır. İnteraktiv təlim prosesində tələbələr bilikləri qavrayarkən onları təhlil edir, dəyərləndirir, onlara münasibətini bildirirlər. Bu isə idraki fəallığa, sərbəst düşüncəyə gətirib çıxarır. Maraq nə qədər dərin olarsa, tələbələrdə öyrənmək stimulu, arzusuna çatmağa inam bir o qədər güclənər.

Pedaqoji təcrübələrdən məlum olur ki, müəllimlər təlim marağını artırmaq üçün ənənəvi dərslərdə olduğu kimi, daha çox əyanilikdən istifadə edirlər. İlk baxışda bəyənilən və tələbələrdə xarici effektin köməyi ilə yaranan belə maraq bəzən tez sönür. Müəllim çalışmalıdır ki, tələbələrin marağı hər şeyi öyrənməyə, dərk etməyə öz çalışmaları nəticəsində formalaşsın. Məhz bu zaman tələbələr daha fəal və müstəqil olur, bilikləri axtarış və kəşflər prosesində mənimsəyir, təhlillər aparır, təlim prosesinin tamhüquqlu iştirakçısı kimi "tədqiqatçı" mövqeyindən çıxış edir, tədqiqat prosesində problemin həllinə nail olurlar.

Müəllimin mövqeyi – fasilitator ("bələdçi", "aparıcı") mövqeyidir, problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, tələbələr qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodiki kömək göstərir.

İnteraktiv təlim və müxtəlif metodlar vasitəsilə həyata keçirilir. Hər bir metodun öz variantları mövcuddur. Burada əsas dərsin keyfiyyətini artırmaq üçün bu metodlardan yerində, düzgün və səmərəli istifadə etməkdir.

İnteraktiv təlim, məktəbəqədər təhsil müəssisəsində çalışmağa hazırlaşan tələbələrin peşəkarlığını artırmaq üçün istifadə oluna bilən dəyərli metoddur. İnteraktiv təlim təqdim olunan materialla fəal iştirak və əlaqəni əhatə edən öyrənmə prosesinə aiddir. İnteraktiv təlim müxtəlif formalarda ola bilər, o cümlədən seminarlar, onlayn öyrənmə və simulyasiyalar. İnteraktiv təlim tələbələrə öyrəndikləri bilik və bacarıqları simulyasiya edilmiş real mühitdə tətbiq etməyə imkan verməsi ilə effektivdir. Bundan əlavə, interaktiv təlim tələbələrə öz həmyaşıdlarından və təlimatçılardan rəy almağa imkan yaradır ki, bu da onların öyrənmə təcrübələrini artıra bilər.

İnteraktiv təlim tələbələrə peşəkar tərbiyəçi-müəllim olmaq üçün lazım olan bilik və bacarıqları öyrətməkdə istifadə edilə bilər. İnteraktiv təlimin məzmunu uşaq inkişafı, valideynlər və uşaqlarla səmərəli ünsiyyət, məktəbəqədər müəssisədə təhsilin qabaqcıl təcrübələri kimi sahələrə yönəldilməlidir. İnteraktiv təlim cəlbedici olmalı və tələbələri təlim prosesində fəal iştirak etməyə təşviq etməlidir. "İnteraktiv vasitələrdən istifadə didaktik materialın tez dəyişməsinə imkan verir, tələbələrin idrak fəaliyyətinin aktivləşməsinə kömək edir, düşüncə, qavrayış, yaddaşın inkişafını stimullaşdırır" [Əliyeva, S., 2022].

İnteraktiv təlim məktəbəqədər müəssisəyə hazırlanan tələbələrin peşəkarlığının artırılmasına töhfə verə biləcək bir sıra üstünlüklər təklif edir. İnteraktiv təlimin üstünlüklərindən biri onun tənqidi düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirməsidir. İnteraktiv təlim vasitəsilə gələcək tərbiyəçi-müəllimlərə tənqidi düşünməyi və problemlərin həlli yollarını inkişaf etdirməyi tələb edən real imkanlar təqdim olunur. Bu təcrübə faydalıdır, çünki o, tələbələri gələcək karyeralarında effektiv problem həll edənlər olmağa hazırlayır.

İnteraktiv təlimdə tələbələr komandalarda işləməyə həvəsləndirilir ki, bu da onlardan effektiv ünsiyyət qurmağı və ümumi məqsədə nail olmaq üçün əməkdaşlıq etməyi tələb edir. Bunun nəticəsində onlarda əməkdaşlıq və ünsiyyət bacarıqları inkişaf edir. Məktəbəqədər təhsildə əməkdaşlıq və ünsiyyət bacarıqları vacibdir, çünki müəllimlər uşaqların öyrənmə və inkişafını dəstəkləmək üçün valideynlər və digər mütəxəssislərlə sıx əməkdaşlıq edirlər.

İnteraktiv təlimdə əks əlaqə əsas yer tutur və tələbələrə öz həmyaşıdlarından və müəllimlərindən rəy almaq imkanı verir. Əks əlaqə təlim prosesində vacibdir, çünki o, tələbələrə təkmilləşdirməli olduqları sahələri müəyyən etməyə kömək edir. Bu isə gələcək tərbiyəçi-müəllimlərə bilik və bacarıqlarını daha da inkişaf etdirməyə imkan verir.

Məktəbəqədər təhsil uşağın sonrakı və uzun illər davam edən təhsilə hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. Buna görə də tərbiyəçi-müəllimlərin yüksək peşəkarlıq nümayiş etdirmələri vacibdir. Bu baxımdan, interaktiv təlim gələcək tərbiyəçi-müəllimlərin peşəkarlığını artırmaq üçün istifadə edilə bilən dəyərli vasitədir. İnteraktiv təlim tənqidi düşünmə və problem həlletmə bacarıqlarını, əməkdaşlıq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək və əks əlaqə imkanlarını təmin etmək kimi bir sıra üstünlüklər təklif edir. Buna görə də tərbiyəçi-müəllim hazırlığı proqramları təklif edən qurumların uşaqların öyrənilməsinə və inkişafına kömək edən keyfiyyətli təhsil verə biləcək yüksək peşəkar uşaq bağçası müəllimləri yetişdirmək üçün öz kurikulumlarına interaktiv təlimi daxil etmələri mütləqdir.

Tərbiyəçi-müəllim hazırlığı proqramlarında interaktiv təlimin həyata keçirilməsinə müxtəlif yanaşmalarla nail olmaq olar. Bir yanaşma interaktiv təlim mo-

dullarının kurikulumda mövcud kurslara daxil edilməsidir. Məsələn, uşaq inkişafı və sinif idarəetməsi kimi kurslar interaktiv təlim modullarını daxil etmək üçün dəyişdirilə bilər. İnteraktiv təlim modulları cəlbedici olmaq üçün tərtib edilməli, fəal iştirak və əməkdaşlıq üçün imkanlar təmin etməlidir.

İnteraktiv təlimin həyata keçirilməsi üçün başqa bir yanaşma məktəbəqədər təhsildə peşəkarlığın inkişafına xüsusi diqqət yetirən müstəqil kurslar təklif etməkdir. Kurslar valideynlər və uşaqlarla effektiv ünsiyyət, qiymətləndirmə, məktəbəqədər təhsildə qabaqcıl təcrübə kimi mövzuları əhatə etməlidir. Kurslar interaktiv olmaq üçün hazırlanmalı və tələbələrə simulyasiya edilmiş real dünya mühitində öz bacarıqlarını tətbiq etmələri üçün imkanlar təmin etməlidir.

İnteraktiv təlimin həyata keçirilməsində üçüncü yanaşma, hazırkı tərbiyəçi-müəllimlər üçün peşəkar inkişaf imkanları təklif etməkdir. Peşəkar inkişaf imkanları seminarlar və ya onlayn kurslar şəklində təklif edilə bilər. Peşəkar inkişaf imkanları tərbiyəçi-müəllimlərin öz peşəkarlıqlarını təkmilləşdirməli olduğu sahələrə, məsələn, valideynlərlə səmərəli ünsiyyət, qiymətləndirmə, məktəbəqədər təhsildə texnologiya inteqrasiyası kimi sahələrə yönəldilməlidir.

Tərbiyəçi-müəllim hazırlığı proqramlarında interaktiv təlimin həyata keçirilməsində bəzi çətinliklər yaranır ki, onlardan biri interaktiv təlim modullarının hazırlanması və tətbiqi xərcləridir. İnteraktiv təlim texnologiya və bacarıqlı təlimatçılar kimi resurslar tələb edir ki, bu da proqramın qiymətini artıra bilər.

Texnologiya və internet bağlantısı kimi resursların mövcudluğunda problemlərin yaranması səbəbindən bəzi tələbələrin tələb olunan texnologiya və ya internet bağlantısına çıxışının olmaması onların interaktiv təlimdə iştirakına maneə yaradır. Tərbiyəçi-müəllim hazırlığı proqramları təklif edən qurumlar tələbələrin interaktiv təlimdə iştirak etmələri üçün lazımi resurslara çıxışını təmin etməlidir.

Digər mühüm çətinliklərdən biri dəyişikliyə qarşı müqavimətdir. Bəzi müəllimlər dəyişikliklərə qarşı konservativ mövqe sərgiləyə və interaktiv təlim metodlarını tədris proqramına daxil etmək istəməyə bilər. Buna görə də məktəbəqədər müəssisəyə müəllim hazırlığı proqramları təklif edən qurumların interaktiv təlimi tədris proqramına daxil etmək və təlimatçıların təchiz edilməsini təmin etmək üçün onlara adekvat təlim və dəstək vermələri zəruridir.

## Nəticə / Conclusion

Tərbiyəçi-müəllimlərin hazırlanması proqramlarında interaktiv təlimin həyata keçirilməsinə müxtəlif yanaşmalar, o cümlədən interaktiv təlim modullarının mövcud kurslara daxil edilməsi, müstəqil kursların təklif edilməsi və hazırkı tərbiyəçi-müəllimlər üçün peşəkar inkişaf imkanlarının təmin edilməsi ilə nail olmaq mümkündür.

İnteraktiv təlim modullarının hazırlanması və tətbiqi xərcləri, resursların mövcudluğu və dəyişikliklərə qarşı müqaviməti baxımından interaktiv təlimin həyata keçirilməsində bəzi çətinliklər yarana bilər. Bununla belə, interaktiv təlimin tənqidi düşünmə və problem həlletmə, əməkdaşlıq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək, əks əlaqə imkanlarını təmin etmək kimi faydaları onu tərbiyəçi-müəllimlərin peşəkar inkişafına dəyərli investisiya edir.

Müəllim hazırlığı proqramları təklif edən qurumlar uşaqların öyrənməsi və inkişafını təşviq edən, keyfiyyətli təhsil verə bilən peşəkar müəllimlər yetişdirmək üçün interaktiv təlimin daxil edilməsinə üstünlük verməlidirlər.

Müəllim hazırlığı proqramlarında interaktiv təlimin həyata keçirilməsi həm tələbələr, həm də müəllimlər üçün çoxsaylı üstünlüklər təşkil edir. Üstünlüklərindən biri interaktiv təlimin tələbələrdə tənqidi düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirməsidir.

İnteraktiv təlim əməkdaşlıq və ünsiyyət bacarıqlarını təşviq edir, tələbələrə qruplarda birlikdə işləmək və fikirlərini səmərəli şəkildə çatdırmaq imkanı verir. Bu, məktəbəqədər təhsildə vacib olan əməkdaşlıq və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir. Tərbiyəçi-müəllimlər uşaqların ehtiyaclarının ödənilməsini təmin etmək üçün valideynlər və uşaqlarla effektiv ünsiyyət qurmağı bacarmalıdırlar və interaktiv təlim bu bacarığı inkişaf etdirmək üçün imkanlar yaradır.

İnteraktiv təlim həm də əks əlaqə imkanları yaradır, tələbələrə öz performansları haqqında rəy almaq imkanı verir ki, bu da onların bacarıqlarının təkmilləşdirilməsinə kömək edir. Müəllimlərə uşaqların fəaliyyətini qiymətləndirmək və müvafiq dəstəyi təmin etməkdə kömək olur.

İnteraktiv təlimin başqa bir üstünlüyü də praktiki öyrənmə imkanları yaratması, tələbələrə simulyasiya edilmiş bacarıqlarını tətbiq etməkdə imkanlar açmasıdır. Bu, tələbələrə öz bacarıqlarını inkişaf etdirməyə və öyrəndiklərini praktiki şəraitdə tətbiq etməyə kömək edir.

İnteraktiv təlim cəlbedici və interaktiv olmaq üçün nəzərdə tutulmuşdur ki, bu da tələbə motivasiyasını təşviq etməyə kömək edir. Məktəbəqədər təhsildə bu, vacibdir, çünki motivasiyalı tələbələr daha çox təlim prosesində iştirak edir və daha yaxşı təlim nəticələrinə nail ola bilirlər.

Yekun olaraq qeyd edə bilərik ki, məktəbəqədər təhsil proqramlarında uşaqların öyrənməsi və inkişafını təşviq edən, keyfiyyətli təhsil verə bilən peşəkar tərbiyəçi-müəllimləri yetişdirmək üçün interaktiv təlimin tətbiqinə üstünlük verilməlidir.

**Məqalənin aktuallığı.** Pedaqoji kadrların peşə ixtisası üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsində interaktiv təlim metodlarından istifadənin əhəmiyyəti günümüzdə aktuallıq kəsb edən məsələdir. Pedaqoji kadr hazırlığında

interaktiv metodlardan istifadə biliklərə müstəqil yiyələnmək və yeni biliklər əldə etmək vərdişlərini formalaşdırır. İnteraktiv təlim prosesində tələbələr bilikləri qavrayarkən onları təhlil edir, dəyərləndirirlər. İnteraktiv metodlardan istifadə tələbələrdə öyrənməyə maraq yaradır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, məktəbəqədər təhsil müəssisələri üçün kadr hazırlığında və tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsində tədris prosesinin yeni texnologiyalar əsasında qurulmasına, xüsusilə interaktiv metodlardan istifadəyə üstünlük verilir və bu metodların səciyyəvi xüsusiyyətlərinin elmi dəyərləri şərh olunur.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə gələcək tərbiyəçi-müəllimlərin peşəkar hazırlığında interaktiv təlim metodlarının təlimin inkişaf prosesinə təsir imkanlarının araşdırılması baxımından əhəmiyyətli hesab olunur. Məqalə pedaqoji təmayüllü ali məktəblərin müəllim və tələbələrinin istifadəsi üçün yararlıdır.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Azərbaycan Respublikası Prezidenti. (2013, oktyabr 24). Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (Sərəncam № 13). https://edu.gov.az/
2. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı". (1999). Bakı, "Çaşıoğlu",18 s.
3. Baxışova, Ş.A. (2015). Məktəbəqədər təhsil: konseptual problemlər (monoqrafiya). Bakı, "Elm və təhsil", 308 s.
4. Bunyadova, F., Abdulla, B. (2000). Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 86 s.
5. Əliyeva, Ş.Q. (2020). Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyalar. Bakı, 70 s.
6. Əliyeva, Ş.Q. (2010). Məktəbəqədər təhsilin aktual problemləri. Bakı, Elm, 282 s.
7. Əliyeva, S.A. (2022). Məktəbəqədər təhsildə müasir təlim texnologiyaları. Bakı, 146 s.
8. İlyasov, M. (2013). Müəllimin pedaqoji ustalığı. Bakı, "Elm və təhsil", 216 s.
9. Mehrabov, A.O., Abbasov, Ə.Ə. və b. (2006). Pedaqoji texnologiyalar. Bakı, "Mütərcim", 372 s.
10. Nəzərov, A. (2012). Müasir təlim texnologiyaları (mühazirə xülasələri). Dərs vəsaiti. Bakı, 53 s.

# MODIFICATIONS IMPLEMENTED IN INCLUSIVE CLASSROOMS FOR STUDENTS WITH DOWN SYNDROME

**Gunay Bedelzade**

Lecturer at Azerbaijan State Pedagogical University,
Doctoral student in the Ph.D. program at the Institute of
Education of the Republic of Azerbaijan
E-mail: gn.badalzade@adpu.edu.az
https: //orcid.org/0000-0003-4422-4746

**Abstract.** This study systematically analyzes the pedagogical modifications implemented in inclusive classrooms to effectively integrate students with Down syndrome into mainstream education. One of the primary research focuses is the effectiveness of adaptive teaching strategies that take into account the individual characteristics of students with Down syndrome, as well as the ways these approaches are applied in inclusive education. The research is grounded in strategies aimed at meeting individual learning needs, including support techniques, increasing participation in daily activities, and promoting social interaction. The analysis also covers key elements such as the physical and methodological adaptation of the classroom environment, differentiated use of instructional resources, curriculum modifications, and the individualization of assessment approaches. Based on existing local and international academic sources, the study proposes a systematic strategic framework that aims to enhance both the academic performance and social participation of children with Down syndrome through practically applicable models and teaching approaches in inclusive educational settings.
**Keywords:** Down syndrome, inclusive education, modification, collaboration, inclusive education practices, systematic approach, comparative analysis.

**DOI:** 10.30546/2709-2488.2.2025.0022
**To cite this article:** Bedelzade G. (2025). Modifications implemented in inclusive classrooms for students with down syndrome. *Journal of Preschool and Primary Education*, Vol. 251, Issue II, pp. 37-49.
**Article history:** received – 21.04.2025; accepted – 27.05.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# DAUN SİNDROMLU ŞAGİRDLƏR ÜÇÜN İNKLÜZİV SİNİFLƏRDƏ TƏTBİQ OLUNAN MODİFİKASİYALAR

**Günay Bədəlzadə**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
ARTİ-nin fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail: gn.badalzade@adpu.edu.az
https: //orcid.org/0000-0003-4422-4746

**Annotasiya.** Tədqiqat Daun sindromlu şagirdlərin ümumi təhsilə səmərəli şəkildə inteqrasiyasını təmin etmək məqsədilə inklüziv siniflərdə tətbiq olunan pedaqoji modifikasiyaları sistemli şəkildə təhlil edir. Daun sindromlu şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan adaptiv təlim strategiyalarının effektivliyi və bu yanaşmaların inklüziv təhsildə tətbiq olunma formaları məqalənin əsas tədqiqat mövzularından biridir. Tədqiqat, fərdi öyrənmə ehtiyaclarını ödəməyə yönəlmiş strategiyalara, o cümlədən öyrənməyə dəstək texnikalarına, gündəlik fəaliyyətlərdə iştirak imkanlarının artırılmasına və sosial qarşılıqlı əlaqələrin təşviqinə əsaslanır. Sinif mühitinin fiziki və metodoloji baxımdan uyğunlaşdırılması, tədris resurslarının diferensial şəkildə istifadəsi, kurikulum dəyişiklikləri və qiymətləndirmə yanaşmalarının fərdiləşdirilməsi kimi əsas elementlər üzrə aparılan təhlillər də tədqiqatın müzakirə obyektidir. Tədqiqat, mövcud yerli və qlobal elmi mənbələrə əsaslanaraq, inklüziv təhsil mühitində səmərəli tətbiq oluna biləcək modellər və praktik tədris yanaşmaları vasitəsilə Daun sindromlu uşaqların həm akademik göstəricilərinin, həm də sosial iştirak səviyyəsinin artırılmasına yönəlmiş sistematik strateji çərçivə təqdim edir.

**Açar sözlər**: Daun sindromu, inklüziv təhsil, modifikasiya, əməkdaşlıq, inklüziv təhsil təcrübələri, sistemli yanaşma, müqayisəli təhlillər.

**DOI:** 10.30546/2709-2488.2.2025.0022
**Məqaləyə istinad:** Bədəlzadə G. (2025). Daun sindromlu şagirdlər üçün inklüziv siniflərdə tətbiq olunan modifikasiyalar. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (252), səh. 37-49.
**Məqalə tarixçəsi:** göndərilib – 21.04.2025; qəbul edilib – 27.05.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

İnklüziv təhsil modeli, şagirdlərin fiziki, psixoloji, intellektual xüsusiyyətləri və sağlamlıq imkanlarından asılı olmayaraq onların hamısına bərabər təhsil şəraiti yaratmağı qarşısına məqsəd qoyur. İnklüziv təhsil modeli çərçivəsində müxtəlif səviyyəli bacarıqlara malik şagirdlərin sinif mühitində birgə təhsil almaları nəzərdə tutulur. Bu kontekstdə, Daun sindromlu şagirdlərin akademik fəaliyyətlərə aktiv şəkildə qoşula bilməsi üçün onlara yönəlmiş fərdi dəstək mexanizmləri və uyğunlaşdırılmış pedaqoji müdaxilələr vacib hesab olunur. Daun sindromu genetik bir vəziyyət olub, 21-ci xromosomun əlavə surətinin olması ilə səciyyələnir və bu, fərqli idrak, davranış və fiziki xüsusiyyətlərin formalaşmasına səbəb olur. Əqli gerilik bu sindromla tez-tez müşahidə olunan çətinliklərdən biridir [Deakin, 2014]. Amerika Əqli və İnkişaf Əlillikləri Assosiasiyasına (AAID) görə, uşaqlarda əqli məhdudiyyətlər intellektual qabiliyyətlə yanaşı, adaptiv davranışlarda da əhəmiyyətli çatışmazlıqlarla müşayiət olunur və bu vəziyyət, adətən, 18 yaşdan əvvəl özünü göstərir [Deakin, 2014]. Bu sindroma malik şagirdlər əksər hallarda idrak inkişafında zəiflik və gündəlik fəaliyyətlərdə məhdud funksional uyğunlaşma ilə seçilir, onlara yönəlmiş fərdi və dəstəkləyici tədris yanaşmalarını zəruri edir. Bu uşaqlarda daha çox təxəyyül, yaddaş, dil inkişafı və motor bacarıqlarda geriliklər müşahidə olunur [Hüseynova, N., 2010]. Lakin müvafiq tədris dəstəyi və fərdi yanaşma ilə onlar inkişaf potensiallarını gerçəkləşdirə bilirlər.

Daun sindromlu şagirdlər təhsil müddətində yalnız fiziki deyil, həm də idrak və sosial sahələrdə müxtəlif çətinliklərlə üzləşirlər. Buna görə də müəllimlərin rolu yalnız fiziki ehtiyacların qarşılanması ilə məhdudlaşmamalı, eyni zamanda onların idrak potensialını inkişaf etdirməyə yönəlmiş məqsədli təlim strategiyalarını da əhatə etməlidir [Clarke & Faragher, 2014]. Bu kateqoriyaya daxil olan uşaqlarda əqli və fiziki inkişaf prosesində ləngimələr, eşitmə və görmə orqanlarında disfunksiya, ürək-damar və tənəffüs sistemlərində quruluş pozuntuları, habelə həzm və endokrin sistemində, xüsusilə tiroid vəzinin fəaliyyətində zəiflik müşahidə olunur. Əzələ tonusunun aşağı olması, oynaq elastikliyinin artması, qısa və enli ətraflar, boyun qısalığı, dar ağız boşluğu və tez yorulma halları bu uşaqlarda tez-tez rast gəlinən xüsusiyyətlərdəndir. Bundan əlavə, burun axıntısı, qəbizlik və nitq inkişafında gecikmə kimi simptomlar da nəzərə çarpır. Xüsusilə, Daun sindromlu şagirdlər mürəkkəb anlayış və terminləri anlamaqda, məlumatı uzunmüddətli yadda saxlamaqda, tapşırıqları dərk edib yerinə yetirməkdə, diqqətini cəmləməkdə, bilikləri ümumiləşdirməkdə və fəaliyyətləri planlaşdırmaqda çətinliklərlə qarşılaşırlar [Westwood, 2009]. Tədqiqatlar göstərir ki, Daun sind-

romlu şagirdlərin tədrisə cavab reaksiyaları müəllim tərəfindən tətbiq olunan fərdiləşdirilmiş təlim strategiyalarının keyfiyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Doğru resurslar və metodlar istifadə edildikdə onların akademik inkişafında əhəmiyyətli irəliləyişlər müşahidə olunur [Westwood, 2009].

Daun sindromlu şagirdlərin inklüziv təhsil mühitinə tam inteqrasiyası üçün tədris proqramının struktur baxımından yenidən təşkil olunması, tədris metodlarının uyğunlaşdırılması, sinfin effektiv idarə olunması və sosial qarşılıqlı münasibətlərin məqsədyönlü şəkildə qurulması zəruridir. Belə dəyişikliklər yalnız fərdi ehtiyacların qarşılanmasına deyil, həm də sinif daxilində bütün şagirdlər arasında qarşılıqlı hörmətin və mənsubiyyət hissinin formalaşdırılmasına xidmət edir.

Tədqiqatın əsas məqsədi inklüziv siniflərdə Daun sindromlu şagirdlərin dəstəklənməsinə yönəlmiş praktik və səmərəli yanaşmaları müəyyənləşdirmək və bu yanaşmaların tətbiq imkanlarını araşdırmaqdır. Tədqiqat çərçivəsində müəllimlərin peşəkar hazırlığının, fərdi tədris planlarının (FTP) və həmyaşıdların dəstəkləyici və təşviqedici təlim mühiti yaratmasında rolu xüsusi olaraq vurğulanır. Bundan əlavə, inklüziv təcrübənin inkişafına töhfə vermək və şagirdlərin potensialını tam şəkildə ortaya çıxarmaq məqsədilə müəllimlərin atmalı olduqları əsas addımlar təhlil edilir.

**Problemin qoyuluşu.** Müasir təhsil sistemində inklüziv təhsilin geniş tətbiqi, xüsusi təhsil ehtiyacları olan şagirdlərin, o cümlədən Daun sindromlu uşaqların ümumi təhsil mühitində tam və bərabər iştirakını təmin etməyi zəruri edir. Lakin tədris prosesində bu şagirdlərin fərdi öyrənmə tərzi, koqnitiv və sosial xüsusiyyətləri nəzərə alınmadan aparılan yanaşmalar onların mövcud potensialının reallaşmasına mane olur. Azərbaycanda inklüziv təhsilin inkişafı istiqamətində müəyyən addımlar atılsa da, konkret olaraq Daun sindromlu şagirdlər üçün fərdi yanaşmaların tətbiqində nəzərəçarpacaq boşluqlar qalmaqdadır. Xüsusilə pedaqoji modifikasiya strategiyalarının sistemli şəkildə işlənməsi və tətbiqi bu istiqamətdə həllini gözləyən əsas problemlərdəndir. Bu baxımdan, Daun sindromlu şagirdlərin ümumi təhsil məktəblərində səmərəli şəkildə iştirakını təmin edəcək fərdi yanaşmaların işlənməsi və tətbiqi aktuallıq kəsb edir və tədqiqatın əsas problemini təşkil edir.

**Metodologiya.** Tədqiqatın məqsədinə uyğun olaraq araşdırmada təhlil və ümumiləşdirmə metodlarından, sistemli yanaşma və komparativ analiz üsullarından istifadə olunmuşdur. Əsasən, inklüziv təhsil sahəsində mövcud olan yerli və beynəlxalq elmi mənbələr, təlim strategiyaları üzrə tədqiqatlar və praktik təcrübə nümunələri sistemli şəkildə araşdırılmış və təhlil edilmişdir. Bununla yanaşı, tədris prosesində istifadə olunan modifikasiya üsulları və fərdi tədris planlarının effektivliyi ədəbiyyatların müqayisəli təhlili əsasında qiymətləndirilmişdir. Metodoloji yanaşmada keyfiyyət əsaslı tədqiqat metodu üstünlük təşkil etmiş, əldə

olunan məlumatlar əsasında təklif və tövsiyələr hazırlanmışdır.Tədqiqatın əsas vəzifəsi, mövcud nəzəri yanaşmaları və praktik təcrübələri ümumiləşdirməklə, inklüziv təhsil mühitində Daun sindromlu şagirdlər üçün effektiv tədris modifikasiyalarının müəyyənləşdirilməsi olmuşdur.

## Əsas hissə / Main part

Azərbaycanda Daun sindromlu uşaqların böyük əksəriyyəti onların fərdi xüsusiyyətləri və ehtiyacları nəzərə alınaraq hazırlanmış, kurikulum əsaslı dərs məzmunu və tədris metodları tətbiq olunan xüsusi məktəblərdə təhsil alırlar. Digər bir qismi isə ev şəraitində və ya reabilitasiya mərkəzlərində fərdi təlim-tərbiyə prosesində iştirak edirlər.

Daun sindromlu şagirdlərin digər həmyaşıdları ilə birlikdə təhsil aldıqları inklüziv təhsil modeli geniş yayılmışdır. Bu model onların müstəqillik bacarıqlarının artırılmasına, sosial əlaqələrinin inkişafına, cəmiyyətə inteqrasiyasına və qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə şərait yaradır. Bundan əlavə, inklüziv təhsil onların gələcək iş və sosial həyatda daha rahat uyğunlaşmasına da kömək edir.

Daun sindromlu şagirdlərin təhsil prosesindən maksimum fayda əldə etməsi üçün fərdi yanaşmaların və tapşırıqların uyğunlaşdırılması vacibdir. Müəllimlər dərs materiallarının təqdimatında dəyişikliklər etməyə ehtiyac duyurlar. Bu, bəzən sadə düzəlişlər, məsələn, şagirdlərin qeydlər aparmaq əvəzinə dərsləri səsli qeyd etməsinə icazə verilməsi, yazılı tapşırıqlarda zaman limitlərinin uzadılması və yazı həcminin azaldılması şəklində ola bilər. Digər hallarda isə əlavə dəstək məqsədilə vizual vasitələrdən istifadə edilməsi və ya müəllimin əlavə resurslarla öyrənmə prosesini asanlaşdırması, həmçinin onun rəhbərliyi altında fərdi və ya qrup şəklində xüsusi dəstək sessiyalarının keçirilməsi tələb olunur.

Şagirdlərin həmyaşıdlarla ünsiyyətini, nizam-intizamını və təlimə marağını artırmaq inklüziv sinifdə qarşılıqlı hörmət və əlverişli mühitin yaranmasına kömək edir.

Daun sindromlu şagirdlər vizual öyrənmə üsullarından və strukturlaşdırılmış materiallardan, əlavə cədvəllərdən, sxemlərdən səmərəli şəkildə faydalanırlar. Bu materialların təkrar istifadəsi onların yeni bilikləri daha yaxşı mənimsəmələrinə şərait yaradır. Ona görə də dərsliklərdə istifadə olunan əsas terminlərin siyahısı onlara əvvəlcədən təqdim olunmalıdır. Şagirdlərin dərs müzakirələrində ikincili dialoqu təşkil etmək üçün fərdi müəllim və ya korreksiya pedaqoqunun dəstəyi mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, Daun sindromlu uşaqların bir çoxu ətraf aləmə xü-

susi maraqları, yüksək müşahidə qabiliyyətləri və fərqli istedadları ilə seçilirlər. Düzgün pedaqoji dəstək göstərildikdə Daun sindromlu şagirdlər öz potensiallarını sinif mühitində tam şəkildə reallaşdıra bilirlər.

## Mövzü ilə əlaqədar mövcud ədəbiyyatların təhlili

Müəllimlərin Daun sindromlu şagirdlərlə işləyərkən seçdikləri strategiyalar yalnız müəyyən texniki üsullarla məhdudlaşmamalı, eyni zamanda ümumi pedaqoji yanaşmanın kontekstinə uyğun formalaşmalıdır [Cologon, 2013]. Tədqiqatlar göstərir ki, istifadə olunan tədris metodları və müəllimin sinifdəki davranış tərzi təhsil nəticələrinə əhəmiyyətli təsir göstərir [McFadden, 2014]. Bu səbəbdən, müəllimlərin peşəkar inkişafı və tədris yanaşmalarının davamlı təkmilləşdirilməsi vacib hesab olunur. Peterson və Hittie (2010) qeyd etmişlər: "Effektiv təlim-tədris strategiyaları tətbiq edilərsə, əqli məhdudiyyətləri olan şagirdlər gözləniləndən qat-qat artıq öyrənmə potensialı nümayiş etdirə bilərlər". Snell və Brown (1993) isə bildirirlər ki, müəllimlər tədris prosesində şagirdin mövcud bilik və bacarıqlarını nəzərə alaraq, gələcək inkişaf üçün aydın istiqamətlər müəyyən etməlidirlər [Westwood, 2009]. Bu da yalnız, daha səmərəli və təkmilləşdirilmiş tədris metodlarının tətbiqi ilə mümkündür.

Daun sindromlu uşaqların sayı ildən-ilə artdığı üçün onların təhsilinə effektiv dəstək göstərilməsi məqsədilə müəllimlərə praktik bilik və resurslar təqdim edilməlidir [Cologon, 2013]. Bəzi tədqiqatçılar təhsil mühitində bu şagirdlərin qeyri-fəal, zəif idrak qabiliyyətli və köməyə möhtac fərdlər kimi təqdim olunmasının onların ümumi inkişafına və təliminə mənfi təsir göstərdiyini vurğulayırlar [McFadden, 2014]. Belə yanlış yanaşma, onları müstəqillikdən uzaq, daimi dəstəyə ehtiyacı olan fərdlər kimi çərçivəyə salır. Buna görə də, müəllimlər yalnız tədris metodikası ilə bağlı deyil, həm də Daun sindromu haqqında obyektiv və pozitiv yanaşmanı əks etdirən biliklərə sahib olmalıdırlar.

İnklüziv təhsildə müəllimlər fərdi tədris metodikaları, sosial və ətraf mühitin öyrənməyə təsiri, ünsiyyət və sosial bacarıqlardakı çətinliklər, diqqətin tez yayındırılması, həmçinin sensor-motor problemlər və müstəqil həyata adaptasiya ilə bağlı çətinliklər kimi amilləri nəzərə almalıdırlar [Cologon, 2013]. Bu xüsusiyyətlər onların tədris prosesində fərdi yanaşmaya ehtiyac duyduqlarını göstərir. Qeyd etmək lazımdır ki, oxşar fərqliliklər digər şagirdlər arasında da müşahidə oluna bilər.

Müəllimlər dərsi planlayarkən, Daun sindromlu şagirdlərin spesifik fərqlərini nəzərə almalıdırlar. Onların qarşılaşdığı çətinliklərdən biri uzunmüddətli yaddaş zəifliyidir. Jahromi, Gulsrud və Kasari (2008) bildirirlər ki, bu uşaqlar

tədris prosesində tapşırıqlara və müəllim yanaşmalarına daha emosional reaksiya verirlər, bəzən isə müəllimlərinə qarşı dərin sevgi və bağlılıq hiss edirlər [Clader, 2010]. Əgər ənənəvi IQ qiymətləndirmələri əvəzinə müvafiq tədris materiallarından istifadə edilərsə, onların oxuma, yazma və ümumi tapşırıqları yerinə yetirmə bacarıqları daha yüksək səviyyəyə çatdırıla bilər [Westwood, 2009]. Təlim materiallarını mənimsəmək üçün tələb olunan nitq və ünsiyyət bacarıqları, Daun sindromlu şagirdlərdə çox vaxt zəif inkişaf etmiş olur.

**Daun sindromlu şagirdləri digər həmyaşıdlarından fərqləndirən öyrənmə çətinlikləri**

Hər bir Daun sindromlu uşaq ən ağır dərəcədə (idiotluq) əqli geriliyə malik olmur, onların əksəriyyətində ağır və orta dərəcə (imbessillik), yüngül dərəcə (debillik) əqli çatışmazlıq müşahidə olunur. Daun sindromu, uşaqlarda bir sıra fiziki çətinliklərin olması ilə də xarakterizə olunur. Məsələn, əllərin və barmaqların daha kiçik ölçüdə olması yazı yazma prosesini çətinləşdirə bilər. Görmə və eşitmə problemləri də bu uşaqlar arasında geniş yayılıb. Xüsusilə eşitmə pozuntuları, erkən yaş dövründə nitqin formalaşmasına mane olur.

Nitq inkişafı çox zaman eşitmə və vizual informasiyanın emalı çətinlikləri ilə birlikdə geriləyir. Bu isə yalnız nitqin anlaşılmasına deyil, sosial bacarıqların inkişafına da mənfi təsir göstərir. Sosial qarşılıqlı əlaqə zamanı informasiyanın işlənməsi və başa düşülməsi ilə bağlı çətinliklər, bu şagirdlərin yaşıdları ilə effektiv münasibət qurmasını əngəlləyir. Həmçinin, onların icra funksiyaları və işçi yaddaş imkanları zəif olduğuna görə, təlimatları başa düşmək və yerinə yetirmək onlar üçün əhəmiyyətli dərəcədə çətinləşir. Bir neçə mərhələdən ibarət mürəkkəb məlumatları anlamaq, qeyd etmək və emal etmək bu şagirdlər üçün ciddi intellektual yük yaradır.

Orta və ağır dərəcəli intellektual məhdudiyyətə malik şagirdlər arasında ünsiyyət bacarıqlarının zəif inkişaf etdiyi də qeydə alınır [Westwood, 2009]. Daha ağır hallarda isə bu bacarıqlar ya çox məhdud olur, ya da ümumiyyətlə, müşahidə olunmur ki, bu da onların sinif mühitində ifadə imkanlarını və sosial qarşılıqlı münasibətləri məhdudlaşdırır. Bu şagirdlər eyni zamanda təkrarlayıcı davranışlara, stereotipik vərdişlərə və obsessiv-kompulsiv meyillərə daha açıq olurlar [McFadden, 2014].

Daun sindromlu uşaqlarda motor bacarıqların inkişafında gecikmələr müşahidə olunur və bu, onların ümumi adaptasiya qabiliyyətinə təsir edir [Clader, 2010]. Tədqiqatlar göstərir ki, erkən yaş dövrlərində bu şagirdlərdə uyğunlaşma imkanları daha yüksək olur, lakin mücərrəd düşüncə formalarını anlamaqda çətinliklər davam edir. Bu səbəbdən, müəllimlər daha konkret və praktik məlumatlar üzərində qurulmuş tədris materiallarından istifadə etməlidirlər.

Əldə edilən məlumatlara əsasən, aşağı və orta səviyyəli çətinliklərə malik

şagirdlər bir mövzunu reallıqla əlaqələndirərək daha effektiv şəkildə öyrənirlər [Westwood, 2009]. Yaş artdıqca onların dil və ünsiyyət bacarıqları zəifləsə də, bəzi hallarda sosial qarşılıqlı əlaqələrdə irəliləyiş mümkündür [McFadden, 2014]. Müəllimin şəxsi münasibəti, motivasiyaedici yanaşması və inamı şagirdin təlim nəticələrinə əhəmiyyətli dərəcədə təsir edir. İlk məktəb illərində daha açıq və qəbuledici davranışlar nümayiş etdirən bu şagirdlərə sosial bacarıqların təlimi erkən mərhələlərdə xüsusi diqqət tələb edir [Westwood, 2009].

Araşdırmalar göstərir ki, bəzi Daun sindromlu şagirdlərdə öyrənməyə maraq və daxili motivasiya digər həmyaşıdları ilə müqayisədə daha məhdud ola bilər [Clader, 2010]. Bu səbəbdən, onların təlim prosesində iştirakları daha çox zaman və əlavə təşviq mexanizmləri tələb edir. Hətta motivasiyaedici vasitələr tətbiq olunsa belə, bu şagirdlərdə öyrənmə tempi, adətən, daha aşağı olur [Gilmore & Cuskelly, 2014].

Müqayisəni cədvəl formatında aşağıdakı kimi təqdim edirik:

**İnklüziv sinif mühitində Daun sindromlu və tipik inkişaf edən şagirdlərin bilik və bacarıq səviyyələrinin müqayisəli təhlili**

**cədvəl 1**

| aspekt | Daun sindromlu şagirdlər | tipik inkişaf edən həmyaşıdları | müqayisə |
|---|---|---|---|
| **koqnitiv inkişaf** | Təfəkkür ləng inkişaf edir, mücərrəd anlayışları dərketmədə çətinliklər mövcuddur [Fidler və b., 2007]. | Təfəkkür sürətli inkişaf edir, mücərrəd düşüncədə üstünlük, anlayışları müxtəlif kontekstlərdə tətbiq edilə bilirlər. | Daun sindromlu şagirdlər strukturlaşdırılmış və təkrarlanan yanaşmalardan faydalanır, həmyaşıdları isə dinamik və sürətli təhsil mühitində uğur qazanırlar. |
| **kommunikasiya bacarıqları** | Ekspressiv nitqdə gecikmə var, daha güclü reseptiv bacarıqlar, alternativ kommunikasiya metodlarından istifadə edilir [Fidler və b., 2007]. | Güclü ekspressiv və reseptiv bacarıqlar, mürəkkəb linqvistik tapşırıqlara tez uyğunlaşa bilirlər. | Vizual vasitələr və strukturlaşdırılmış dil fəaliyyətləri ilə Daun sindromlu şagirdlərin kommunikasiya bacarıqlarını artırmaq üçün yaşıd modellərindən istifadə olunur. |
| **sosial bacarıqlar** | Sosial cəhətdən ünsiyyətcil olsalar da, sosial işarələri başa düşməkdə çətinlik çəkirlər. Strukturlaşdırılmış sosial imkanlardan faydalanma [Hodapp & Urbano, 2007]. | Münasibət qurmaqda bacarıqlı, sosial normaları müstəqil şəkildə başa düşürlər. | İnklüziv siniflər hər iki qrup üçün sosial öyrənmə imkanı yaradır. |

| | | | |
|---|---|---|---|
| **öyrənmə üslubları** | Vizual və təcrübi öyrənməyə üstünlük verirlər, strukturlaşdırılmış mühitlərdə əlavə vaxta ehtiyac duyurlar. | Müxtəlif öyrənmə üslublarına uyğunlaşa bilirlər; daha az strukturlaşdırılmış və sürətli mühitlərdə uğur qazanırlar. | İnklüziv strategiyalar bütün şagirdləri effektiv dəstəkləmək üçün strukturlaşdırılmış və çevik təlim metodlarının tarazlaşdırılmasını tələb edir. |
| **akademik nəticələr** | Yavaş irəliləyir, praktiki tapşırıqlarda müvəffəq olur, lakin tədris proqramına düzəlişlərə ehtiyac duyurlar [Faragher & Brown, 2005]. | Sürətlə irəliləyir, standart meyarlara cavab verir və müstəqil şəkildə daha mürəkkəb anlayışları öyrənirlər. | Daun sindromlu şagirdlər üçün irəliləyiş fərdi məqsədlərə görə əhəmiyyətlidir, yaşıdları isə daha geniş akademik nailiyyətlər əldə edirlər. |

Cədvəldə təqdim olunan nəticələrdən də göründüyü kimi, inklüziv təhsil mühiti həm Daun sindromlu şagirdlər, həm də tipik inkişaf xüsusiyyətlərinə malik şagirdlər üçün qarşılıqlı fayda verən bir yanaşma təqdim edir. Bu modelin ən önəmli üstünlüklərindən biri, hər iki şagird qrupunun öz sosial və akademik potensialını inkişaf etdirməsi üçün imkanların yaradılmasıdır:

- Daun sindromlu şagirdlər üçün bu mühit, onların müstəqil fəaliyyət bacarıqlarının və sosial ünsiyyət səviyyələrinin inkişafı baxımından əlavə dəstək mexanizmləri təqdim edir.
- Tipik inkişaf edən şagirdlər isə empatiya qurmaq, əməkdaşlıq etmək və liderlik bacarıqları kimi mühüm sosial kompetensiyaları inkişaf etdirmək imkanına malik olurlar.

Bu baxımdan, inklüziv təhsilin effektivliyi üçün tədrisin fərdi ehtiyaclara uyğunlaşdırılması əsas şərtdir. Effektiv inklüziv təhsil üçün müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini – onların öyrənmə sürətini, idrak tərzini və bacarıq səviyyəsini – diqqət mərkəzində saxlamalı və bu xüsusiyyətlərə uyğun tədris strategiyaları tətbiq etməlidirlər. Bu yanaşma, hər bir şagirdin təhsil prosesində aktiv iştirakını və maksimum inkişafını təmin edir.

Daun sindromlu şagirdlərin öyrənmə, ünsiyyət və sosial qarşılıqlı əlaqə sahəsindəki çətinlikləri onların xüsusi təhsil ehtiyaclarına uyğunlaşdırılmış təlim modifikasiyaları ilə qarşılanmalıdır. Bu adaptasiyalar şagirdlərin tədrisə tam şəkildə qoşulmasına və akademik inkişaf əldə etməsinə şərait yaradır. Aşağıda bu məqsədlə istifadə olunan əsas modifikasiya üsulları təqdim olunur:

**1. Kurikulumun uyğunlaşdırılması**

- **Sadələşdirilmiş kurikulum.** Kurikulumun çətinlik dərəcəsinin tənzimlənməsi, tapşırıqların daha sadə mərhələlərə bölünməsi və şagirdin fərdi sürətinə uyğunlaşdırılması uğurlu tədrisə töhfə verir [Fidler, 2007].
- **Fərdi tədris planları (FTP).** Daun sindromlu şagirdlər üçün nəzərdə tutulan FTP-lər konkret və ölçülə bilən məqsədlərə əsaslanaraq, onların təhsil ehtiyaclarına uyğunlaşdırılmış strategiyaları əhatə edir [Browder və b., 2012].

**2. Təlim strategiyalarında dəyişikliklər**

- **Vizual dəstək.** Şəkillər, qrafiklər, cədvəllər və video materiallar kimi əyani resurslar vizual öyrənməyə meyilli şagirdlərin anlayışını asanlaşdırır və gündəlik rutinləri mənimsəməyə kömək edir [Hodapp & Urbano, 2007].
- **Təkrar və nəzərdən keçirmə.** Biliyin möhkəmləndirilməsi üçün müntəzəm təkrar və qısa baxış seansları tədris planına daxil edilməlidir. Bu yanaşma yaddaşın güclənməsinə və özünəinamın artmasına səbəb olur [Faragher & Brown, 2005].
- **Praktik fəaliyyətlər.** Kinestetik və sensor əsaslı öyrənmə yolları – məsələn, manipulyativ vasitələr, rollu oyunlar və sosial ssenarilər – şagirdlərin təlimdə daha aktiv iştirakını təmin edir [Laws & Gunn, 2004].

**3. Qiymətləndirmə metodlarında uyğunlaşmalar**

- **Alternativ qiymətləndirmə.** Ənənəvi imtahanlardan fərqli olaraq, portfoliolar, layihələr və performansa əsaslanan üsullar şagirdlərin bilik və bacarıqlarını daha dolğun nümayiş etdirməyə şərait yaradır [Browder və b., 2012].
- **Əlavə vaxt və dəstək.** Qiymətləndirmə zamanı əlavə vaxt verilməsi, səs-küysüz mühit və fasilə imkanları şagirdin stres səviyyəsini azaldır və potensialını tam ifadə etməsinə yardım edir [Fidler və b., 2007].

Nəticə etibarilə, inklüziv siniflərdə tətbiq olunan bu dəyişikliklər və modifikasiyalar Daun sindromlu şagirdlərin öz təhsil potensialını reallaşdırması üçün vacib təməl yaradır. Kurikulumun məzmununun, sinif idarəetmə metodlarının və sosial qarşılıqlı əlaqələrin şagirdlərin ehtiyaclarına uyğun şəkildə tənzimlənməsi müəllimlərə bu prosesdə uğur qazanmaq imkanı verir. Burada təsvir olunan strategiyalar həm tədqiqat nəticələrinə, həm də praktik təcrübələrə əsaslanaraq formalaşdırılmışdır.

## Nəticə / Conclusion

Bu araşdırma, inklüziv təhsil mühitində çalışan müəllimlərin və korreksiyaedici pedaqoqların Daun sindromlu şagirdlərin tədris prosesində qarşılaşdıqları çətinliklərə dair təcrübə və yanaşmalarını hərtərəfli şəkildə təhlil edir. Araşdırma nəticələri göstərir ki, bu şagirdlərin öyrənmə fəaliyyətinə təsir edən əsas amillər onların fərdi xüsusiyyətləri, qeyri-fəal davranışları, motor bacarıqlarında geriləmələr, sosial qarşılıqlı əlaqə çətinlikləri və tədris mühitinin struktur və emosional komponentləridir. Fərdi ehtiyacları və dəyişkən inkişaf xüsusiyyətlərini nəzərə almadan standartlaşdırılmış tədris yanaşmalarından istifadə edilməsi, Daun sindromlu şagirdlərin akademik nailiyyətlərini məhdudlaşdıra bilər.

Tədqiqat sübut edir ki, Daun sindromlu şagirdlərin effektiv şəkildə təlimə

cəlb olunması, yalnız bilik ötürməklə deyil, onların həyat tərzinə və gündəlik funksional bacarıqlarına uyğun tədris yanaşmalarının tətbiqi ilə də mümkündür. Bu, müəllimdən həm peşəkar hazırlıq, həm də şəfqətli və fərdiləşdirilmiş yanaşma tələb edir. Mövcud araşdırmalar təsdiqləyir ki, Daun sindromlu şagirdlər arasında geniş fərdi fərqlər mövcuddur və bu səbəbdən də tədris yalnız ümumi metodlarla deyil, fərdiləşdirilmiş və ehtiyaclara uyğunlaşdırılmış şəkildə təşkil edilməlidir.

Müqayisəli təhlil onu da təsdiqləyir ki, Daun sindromlu şagirdlərin təlimi, tipik inkişaf göstərən şagirdlərlə işləməyə nisbətən daha çox hazırlıq, təhlil və adaptiv strategiyalar tələb edir. Burada əsas məsələ şagirdlərin öyrənməyə nə qədər hazır olmalarından daha çox, müəllimin onları öyrətməyə nə qədər hazır və səriştəli olmasıdır.

**Məqalənin aktuallığı.** Mövzu elmi və praktik baxımdan aktualdır. Təhsil sahəsində bərabərlik və inklüzivlik prinsiplərinə əsaslanan yanaşmalar, fiziki, zehni və emosional çətinlikləri olan uşaqların təhsil sisteminə tam inteqrasiyasını təmin etməyə yönəlib. Daun sindromlu şagirdlərə yönəlmiş effektiv tədris strategiyalarının hazırlanması və tətbiqi, həm sosial təcridin qarşısının alınmasında, həm də onların akademik potensialının üzə çıxarılmasında mühüm rol oynayır. Bu səbəbdən, inklüziv təhsildə tətbiq olunan dəstək və modifikasiya strategiyalarının araşdırılması aktuallığını qoruyur.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi, inklüziv siniflərdə Daun sindromlu şagirdlər üçün tətbiq olunan fərqli tədris strategiyalarının sistemli şəkildə təhlil edilməsində və onların effektivliyinin qiymətləndirilməsindədir. Mövcud ədəbiyyata əsaslanaraq formalaşdırılan bu yanaşmalar, şagirdlərin ehtiyaclarına uyğunlaşdırılmış kurikulum, qiymətləndirmə, təlim metodları və sosial mühitin təşkilinə dair yeni modellər təqdim edir. Məqalədə bu dəyişikliklərin həm nəzəri əsasları, həm də praktik nəticələri detallı şəkildə şərh olunur və mövzuya orijinal töhfə verilir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə, gündəlik tədris praktikası üçün əhəmiyyətli tövsiyələr təqdim edir. Daun sindromlu şagirdlərin effektiv tədrisində istifadə edilə biləcək konkret modifikasiya üsulları və fərdiləşdirilmiş yanaşmalar müəllimlər üçün tətbiq edilə bilən strategiyalar şəklində formalaşdırılıb. Bundan əlavə, təhsil siyasətçiləri və məktəb rəhbərləri üçün də bu yanaşmalar inklüzivlik prinsipinin daha səmərəli həyata keçirilməsində rəhbər rol oynaya bilər. Məqalə, inklüziv təhsil sahəsində çalışan pedaqoqlar üçün həm nəzəri bilik, həm də praktik bacarıqlar baxımından dəyərli bir resurs funksiyası daşıyır.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Hüseynova, N. (2017). İntellektual inkişafdan geri qalan uşaqların pedaqogikası. Bakı, ADPU nəşriyyatı.
2. Hüseynova, N. (2010). Oliqofrenopsixologiya (Metodik vəsait). Bakı.
3. Mikayıllı, B. (2021), Dünyanın təhsil mənzərəsi, Bakı, Elm və zəka.
4. Mikayıllı, B. İsgəndərova, İ., (2024). "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnal, №4, s.97-104. DOI: 10.30546/2709-2488.4.2024.012
5. Browder, D.M., Ahlgrim-Delzell, L., Courtade, G.R., & Gibbs, S. (2012). Teaching Students with Severe Disabilities. Boston: Pearson.
6. Clader, E.J. (2010). Activity participation and motivation in Down syndrome (Yayınlanmamış magistr dissertasiyası). Colorado State University, Fort Collins, Colorado.
7. Clarke, B., Faragher, R. (2014). Introduction. In R. Faragher & B. Clarke (Eds.), Educating Learners with Down Syndrome: Research, theory, and practice with children and adolescents (pp. 5–16). London: Routledge.
8. Cologon, K. (2013). Debunking myths: Reading development in children with Down syndrome. Australian Journal of Teacher Education, 38(3), 130–151.
9. Cress, C. J., & Marvin, C. A. (2003). Communication and Language Intervention for Children with Autism. New York: Guilford Press.
10. Deakin, K. A. (2014). Perceptions of Down syndrome: A growing awareness? (Yayınlanmamış doktorluq dissertasiyası). University of Glasgow.
11. Fidler, D. J. (2005). The emerging Down syndrome behavioral phenotype in early childhood: Implications for practice. Infants & Young Children, 18(2), 86–103.
12. Fidler, D. J., Hepburn, S., & Rogers, S. (2007). Early learning and adaptive behavior in children with Down syndrome. Developmental Disabilities Research Reviews, 13(3), 245–254.
13. Faragher, R., & Brown, R. I. (2005). Numeracy for students with Down syndrome. International Journal of Disability, Development and Education, 52(3), 223–242.
14. Giangreco, M. F., Suter, J. C., & Doyle, M. B. (2003). Students with disabilities and general education classrooms: A review of the research on effective practices. Journal of Special Education, 37(4), 197–211.
15. Hodapp, R. M., & Urbano, R. C. (2007). Special education for children with Down syndrome. The Journal of Special Education, 41(3), 147–157.

16. McFadden, A. T. (2014). The experiences of teachers teaching children with Down syndrome in the early years of schooling (Yayınlanmamış doktorluq dissertasiyası). Queensland University of Technology.
17. Peterson, J. M., Hittie, M. M. (2010). Inclusive Teaching: The Journey Towards Effective Schools for All Learners. Upper Saddle River, NY: Pearson.
18. Westwood, P. (2009). What Teachers Need to Know about Students with Disabilities. Camberwell, Victoria: ACER Press.

# THE ROLE OF EXCURSIONS IN THE EDUCATIONAL PROCESS

**Irada Malikova**

Secondary School No. 74, Baku
Primary school teacher
E-mail: irada666@mail.ru
https://orcid.org/0000-0002-5048-271X

**Abstract.** The article comprehensively explores the role of excursions as an essential and integral part of the teaching and educational process at the primary education level. It scientifically analyzes the impact of excursions on reinforcing students' theoretical knowledge through practical observation, enhancing their cognitive activity, and developing skills in understanding the surrounding world, observation, and applying knowledge. Using excursions to the Gobustan State Historical and Artistic Reserve and other historical-memorial sites as examples, the study examines how such activities contribute to instilling national and moral values, fostering patriotism, and shaping students' social communication and collective behavior skills. Based on the author's teaching experience, the article substantiates the importance of these activities in the context of interdisciplinary integration, their role in improving the quality of education through the use of interactive teaching methods, and their overall pedagogical significance in shaping students as individuals. Additionally, the article highlights the educational and developmental potential of excursions and offers methodological recommendations for organizing them within the framework of the curriculum.
**Keywords:** primary education, pedagogical process, excursions, interdisciplinary integration, patriotic education, Gobustan State Historical and Artistic Reserve, extracurricular activities, national-moral values.

**DOI:** 10.30546/2709-2488.2.2025.0028
**To cite this article:** Malikova I. (2025). The role of excursions in the educational process. *Journal of Preschool and Primary Education*, Vol. 251, Issue II, pp. 51-59.
**Article history:** received – 23.04.2025; accepted – 19.05.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# EKSKURSİYALARIN TƏDRİS PROSESİNDƏ ROLU

**İradə Məlikova**

Bakı şəhəri 74 nömrəli tam orta məktəb
İbtidai sinif müəllimi
E-mail: irada666@mail.ru
https://orcid.org/0000-0002-5048-271X

**Annotasiya.** Məqalədə ekskursiyaların ibtidai təhsil pilləsində təlim-tərbiyə prosesinin mühüm və ayrılmaz tərkib hissəsi kimi rolu hərtərəfli şəkildə araşdırılır. Şagirdlərin nəzəri biliklərinin praktik müşahidələrlə möhkəmləndirilməsi, onların idrak fəallığının artırılması, ətraf aləmi dərketmə, müşahidə və bilikləri tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində ekskursiyaların təsirləri məqalədə elmi əsaslarla təhlil olunur. Qobustan Dövlət Tarixi-Bədii Qoruğu və digər tarixi-memorial obyektlərə təşkil edilən ekskursiyalar nümunəsində milli-mənəvi dəyərlərin, vətənpərvərlik hissinin şagirdlərə aşılanması, sosial ünsiyyət və kollektiv davranış vərdişlərinin formalaşdırılması imkanları araşdırılır. Məqalədə müəllim təcrübəsinə əsaslanaraq belə fəaliyyətlərin fənlərarası inteqrasiya kontekstində əhəmiyyəti, interaktiv təlim metodlarının tətbiqi ilə tədrisin keyfiyyətinin artırılmasına təsiri və ümumilikdə, şagirdlərin şəxsiyyət kimi formalaşmasında oynadığı mühüm pedaqoji rol əsaslandırılır. Eyni zamanda, ekskursiyaların tərbiyəvi və inkişafetdirici potensialı, onların kurikulum çərçivəsində təşkilinə dair metodiki tövsiyələr də məqalədə öz əksini tapır.

**Açar sözlər:** ibtidai təhsil, pedaqoji proses, ekskursiyalar, fənlərarası inteqrasiya, vətənpərvərlik tərbiyəsi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, tədrisdənkənar fəaliyyətlər, milli-mənəvi dəyərlər.

**DOI:** 10.30546/2709-2488.2.2025.0028
**Məqaləyə istinad:** Məlikova İ. (2025). Ekskursiyaların tədris prosesində rolu. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (251), səh. 51-59.
**Məqalə tarixçəsi:** göndərilib – 23.04.2025; qəbul edilib – 19.05.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Müasir pedaqoji yanaşmalarda şagirdlərin, bilikləri yalnız passiv şəkildə qəbul edən deyil, onları fəal şəkildə qavrayan, araşdıran və tətbiq edən subyekt kimi formalaşdırılması əsas məqsədlərdən biridir. Təlim prosesində əyani, praktik və şagirdyönümlü metodların tətbiqi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə metodlardan biri də ekskursiyalardır. Ekskursiyalar şagirdlərin dərsdə öyrəndikləri nəzəri bilikləri real həyatla əlaqələndirməsinə, müşahidə, təhlil və nəticə çıxarma kimi idrak bacarıqlarının inkişafına imkan yaradır. Bu proses həm də onların ətraf mühiti daha dərindən dərk etməsinə və sosial-mədəni təcrübələr qazanmasına şərait yaradır.

Araşdırmalar göstərir ki, ekskursiyalar zamanı şagirdlər ətraf aləmlə birbaşa təmasda olarkən təlim materialını daha yaxşı mənimsəyir, eyni zamanda vətənpərvərlik, əməksevərlik, kollektiv fəaliyyət və məsuliyyət hissi kimi keyfiyyətlər də formalaşır. Bu baxımdan, ekskursiyalar təlimin tərbiyəvi funksiyasını da uğurla yerinə yetirən çoxfunksiyalı pedaqoji vasitə kimi çıxış edir. İbtidai təhsil pilləsində uşaqların idrak fəallığının yüksəldilməsi, onların müşahidəçilik və təfəkkür bacarıqlarının inkişaf etdirilməsi üçün əyani-praktik fəaliyyətlərin müntəzəm təşkili mühüm şərtlərdəndir. Xüsusilə, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu kimi zəngin tarixi və mədəni irsə malik məkanlara edilən ekskursiyalar şagirdlərin milli-mənəvi dəyərlərlə tanışlığını dərinləşdirir, onlarda tarixi yaddaşın formalaşmasına və vətəndaşlıq mövqeyinin güclənməsinə səbəb olur. Bu cür fəaliyyətlər uşaqların Azərbaycanın qədim sivilizasiya beşiklərindən biri olan Qobustan haqqında biliklərini artırmaqla yanaşı, onlarda qürur hissi və tarixi irsə hörmət münasibəti formalaşdırır. Məqalədə ekskursiyaların ibtidai təhsil pilləsində tədris prosesinə inteqrasiya imkanları, onların təlim-tərbiyə məqsədlərinə xidmət edən funksiyaları və metodiki təşkilinə dair nəzəri və praktiki əsasları araşdırılır. Eyni zamanda, ekskursiyaların fənlərarası inteqrasiya çərçivəsində tətbiqi və şagirdlərin şəxsiyyət kimi formalaşmasında oynadığı pedaqoji rol müzakirə olunur.

### Problemin qoyuluşu

Müasir ibtidai təhsil mühitində şagirdlərin yalnız nəzəri biliklərlə deyil, eyni zamanda həmin bilikləri real həyatla əlaqələndirmək və praktik bacarıqlara çevirmək imkanları ilə təmin olunması zəruridir. Lakin aparılan müşahidələr göstərir ki, fənlərarası inteqrasiyanın zəif qurulması, şagirdlərin nəzəri bilikləri praktik fəaliyyətlərdə tətbiq etməkdə çətinlik çəkməsi və tədrisdənkənar fəaliyyətlərin məqsədyönlü şəkildə təşkil edilməməsi bu istiqamətdə ciddi çatışmazlıqlara sə-

bəb olur. Bu problemlər, eyni zamanda, milli-mənəvi tərbiyənin və sosial bacarıqların formalaşmasını da zəiflədir. Bütün bu amillər ibtidai təhsildə ekskursiyaların sistemli şəkildə tətbiqinin və onların tədris prosesinə pedaqoji cəhətdən inteqrasiyasının aktuallığını və zəruriliyini gündəmə gətirir.

İbtidai təhsil pilləsində ekskursiyaların tədris-tərbiyə prosesinə inteqrasiyası şagirdlərin nəzəri biliklərinin möhkəmləndirilməsi, idrak fəallığının artırılması və milli-mənəvi dəyərlərin aşılanması baxımından nə dərəcədə effektivdir?

**Metodlar**

Tədqiqatda deskriptiv və keyfiyyət yönümlü metodlardan istifadə edilmişdir. Müəllim təcrübəsinə əsaslanan müşahidələr, şagird fəaliyyətlərinin təhlili, konkret ekskursiya nümunələri (Qobustan Qoruğu, Şəhidlər Xiyabanı, Qənimətlər Parkı və s.) üzrə aparılan praktik tədbirlər araşdırılmışdır. Eyni zamanda, pedaqoji ədəbiyyat, kurikulum sənədləri və mövcud metodik göstəricilər təhlil olunmuşdur.

## Əsas hissə / Main part

Ekskursiyalar tədris prosesinin ayrılmaz tərkib hissəsi olaraq şagirdlərin dərs materialını daha dərindən mənimsəmələrinə xidmət edir. Müxtəlif fənlər üzrə keçirilən dərslərin ekskursiya formasında təşkili şagirdlərdə maraq oyatmaqla yanaşı, onların yaddaşında uzun müddət qalacaq bilik və təsəvvürlərin formalaşmasına səbəb olur. Ekskursiyalar zamanı şagirdlər nəzəri bilikləri real mühitdə müşahidə və təhlil etmə imkanı əldə edirlər ki, bu da tədrisin keyfiyyətinə müsbət təsir göstərir. Təcrübələr göstərir ki, hətta dərs materialını çətin mənimsəyən şagirdlər belə əyani və praktiki müşahidələr sayəsində mövzunu daha yaxşı anlayır və tətbiq edə bilirlər. Ekskursiyalar şagirdlərdə idrak fəallığını artırır, onlarda araşdırma, müşahidə və nəticə çıxarma bacarıqlarını inkişaf etdirir. Belə tədbirlər həmçinin tədrisin interaktivliyini təmin edir və fənlərarası inteqrasiyanın həyata keçirilməsinə şərait yaradır. Ekskursiya təlim forması kimi ibtidai sinif şagirdlərində müşahidəçiliyin, fənnə marağın və idrak fəallığının formalaşmasına xidmət edir [Qranik, Q.İ., 1985].

İbtidai təhsil pilləsində bütün fənlərin tədris proqramlarında ekskursiyaların nəzərdə tutulması vacib şərtlərdən biridir. Müəllim olaraq, illik və perspektiv planlaşdırma zamanı dərsin mövzusuna uyğun ekskursiyaları əvvəlcədən planlaşdırıram. Məsələn, həyat bilgisi, texnologiya, təsviri incəsənət və musiqi fənləri üzrə təşkil olunan ekskursiyalar çərçivəsində şagirdlərlə incəsənət qalereyaları, kitab evləri, təbiət guşələri, zoopark, dəniz və çay kənarlarına səfərlər təşkil edilir.

Eyni zamanda, istehsalat sahələrinə, müasir sənaye və tikinti obyektlərinə edilən səfərlər şagirdlərdə əməksevərlik, məsuliyyət, əmək mədəniyyəti və

vətənpərvərlik kimi keyfiyyətlərin formalaşmasına xidmət edir. Ekskursiyalar həm də kollektiv fəaliyyəti gücləndirir, şagirdlərdə ünsiyyət bacarıqlarını və sosial adaptasiya imkanlarını inkişaf etdirir. Beləliklə, ekskursiyalar yalnız dərsin əyani hissəsi deyil, eyni zamanda təlimin pedaqoji effektivliyini və tərbiyəvi funksiyasını təmin edən mühüm metodik vasitədir. Düşünülmüş mərhələli ekskursiya nəzəriyyə ilə praktika arasındakı əlaqəni gücləndirir, ibtidai sinif şagirdlərinə tədris materialını real mühitdə möhkəmləndirməyə kömək edir [Nazarova, N. F., 2009].

Bu yaxınlarda Azərbaycan dili fənni üzrə "Odlar yurdu" bölməsinə başladıq. Mövzumuz tarixi abidələrimiz, Azərbaycan ərazisindəki qalalar idi. Nə vaxt idi ki, şagirdlərimi ibtidai insanın dünya ilə ilk təmasının başlandığı və sivilizasiyanın beşiyi hesab olunan açıq səma altındakı Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna aparacağıma söz vermişdim. Nəhayət ki, ekskursiyamız baş tutdu. Yollandıq Qobustana... Qoruq Qaradağ rayonunun Qobustan qəsəbəsində, paytaxt Bakıdan 55 km məsafədə yerləşir. Dünya miqyaslı tarixi abidə olan Qobustan qayalarına baxdıqca heyrətlənən şagirdlər xəyalən tarixi keçmişimizi, əcdadlarımızı qürurla yad etdilər. Qobustandakı qayaüstü təsvirlərin çəkilmə və ya döyülmə kimi müxtəlif üsullarla hazırlanması onların minillərlə qorunub saxlanmasına şərait yaradıb. Bu təsvirlər həm qədim insanların həyat tərzini əks etdirir, həm də onların yaradıcı bacarığa malik olduğunu göstərir [Rüstəmov, C., 2003]. Muzeyi gəzdikcə aldıqları məlumatlar, gördükləri eksponatlar, qayaüstü rəsmlər, qavaldaşı və mağaralar tariximiz haqqında şagirdlərdə böyük təsəvvür yaratdı. Onlar bir daha anladılar ki, Azərbaycanda tarixi abidələr, qalalar çox hadisələrin şahidi olub. Vətən torpağında əsrlər boyu saxlanılmış hər bir tarixi - arxeoloji abidə babalarımızın tarix boyu yaşayışı, yaradıcılığı, həyat tərzi və qədim mədəniyyəti, onun inkişaf mərhələlərini, dünyagörüşü və dini təsəvvürlərini öyrənmək üçün qiymətsiz tarixi əsər, maddi mənbədir [Rüstəmov, C., 2006].

Tarixi abidələrin ən maraqlı sirlərindən biri də qayaüstü təsvirlərdir. Qədim qayaüstü təsvirlər ibtidai cəmiyyətdə insan əməyini, fəaliyyətini, onun həyat və dünyagörüşünü rəngarəng və canlı şəkildə əks etdirən arxeoloji abidə - tarixi sənədlərdir [Rüstəmov, C., 1994]. Qobustan qayaüstü təsvirləri UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib və bu fakt Azərbaycanın qədim mədəniyyət daşıyıcısı kimi beynəlxalq səviyyədə tanınmasına səbəb olub [UNESCO, 2007]. Qoruqda 6000-dən çox qayaüstü rəsmin mövcudluğu burada min illər boyu insanların yaşayıb-yaratdığını sübut edir. Bu təsvirlər təkcə incəsənət nümunələri deyil, həm də ibtidai insanların dünyagörüşünün, əmək fəaliyyətinin, dini inanclarının və sosial münasibətlərinin əksidir. Qobustanda aparılan arxeoloji qazıntılar nəticəsində mezolit, neolit və eneolit dövrlərinə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir [Cəfərzadə, İ., 1973]. Bu eksponatlar Azərbaycan

ərazisinin qədim insan məskəni olduğunu elmi əsaslarla sübut edir. Şagirdlər qoruqda həmçinin qədim yaşayış məskənləri ilə tanış oldular və tarixi hadisələri bilavasitə müşahidə etmək imkanı qazandılar. Onlar anladılar ki, Qobustan təkcə milli sərvət deyil, həm də bəşəriyyətin ortaq mədəni irsidir. Belə ekskursiyalar məktəblilərdə tarixə marağı artırmaqla yanaşı, onlarda milli-mənəvi dəyərlərə hörmət hissini də gücləndirir [Rüstəmova, S., 2010].

Tarixi abidələrin qorunması və gələcək nəsillərə ötürülməsi hər bir vətəndaşın mənəvi borcudur. Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna ekskursiya şagirdlər üçün həm maarifləndirici, həm də vətənpərvərlik ruhunu aşılayan mühüm bir təcrübə oldu. Vətənpərvərlik hissinin formalaşdırılması, Vətən torpaqlarının müdafiəsinin tarixi əhəmiyyətinin dərk olunması və Azərbaycan uğrunda canından keçmiş igidlərin qəhrəmanlıq salnaməsinin şagirdlərə aşılanması baxımından tədrisdənkənar ekskursiyaların rolu böyükdür. Bu da həqiqətdir ki, orta ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsi ayrıca bir fənn kimi tədriq olunmur. Amma tədris olunan hər bir fənnin tərkibində vətənpərvərlik ruhu, vətənpərvərlik amalı, vətənpərvərlik ideyası yaşayır [Əliyev, F., 2012]. Mövzusu vətənpərvərlik, dövlətçiliyin qorunması və milli qəhrəmanların şücaətləri ilə bağlı dərslərin tədrisi zamanı "Şəhidlər Xiyabanı"na, "Qənimətlər Parkı" "Hərbi Qənimətlər Muzeyi"nə təşkil olunan ekskursiyalar pedaqoji baxımdan məqsədyönlü və tərbiyəvi əhəmiyyətlidir. Belə ekskursiyalar zamanı şagirdlər Azərbaycan tarixində baş vermiş mühüm hadisələr, torpaqlarımızın azadlığı uğrunda aparılan mübarizələr və bu mübarizələrin iştirakçıları haqqında biliklər əldə edirlər. Bu proses, yalnız faktoloji məlumatların ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda onların dünyagörüşünün genişlənməsinə, söz ehtiyatının zənginləşməsinə və vətəndaşlıq mövqeyinin möhkəmlənməsinə xidmət edir. Tədris zamanı təqdim olunan bədii mətnlərdə əksini tapan vətənpərvərlik motivləri ilə praktiki ekskursiyalar arasında inteqrasiya şagirdlərin mövzuya marağını artırır və biliklərin daha dərindən mənimsənilməsinə şərait yaradır. Ekskursiyalar zamanı şagirdlər yalnız keçmişi deyil, həm də bu günün qəhrəmanlıq nümunələrini canlı şəkildə dərk edir, şəhidlərimizin həyat yolu ilə tanış olaraq fədakarlıq anlayışını daha dərindən qavrayırlar. Bu cür fəaliyyətlər milli kimlik və vətəndaş məsuliyyəti hissinin formalaşmasında mühüm rol oynayır. Şagirdlər tarix və ədəbiyyat dərslərində öyrəndikləri bilikləri real abidə və memorial məkanlarda müşahidə edərək onları şüurlu şəkildə qəbul edirlər. Ekskursiyalar nəticəsində əldə olunan biliklər, təlim-tərbiyə prosesində aktual olan mənəvi-əxlaqi dəyərlərin tədrisində də səmərəli istifadə olunur. Beləliklə, məktəbdənkənar və məktəbdaxili vətənpərvərlik tərbiyəsi tədbirləri kompleks şəkildə milli yaddaşın qorunmasına və yeni nəslin milli ruhda yetişməsinə xidmət edir.

## Nəticə / Conclusion

Ekskursiyalar ibtidai siniflərdə təlim-tərbiyə prosesinin effektivliyini artıran, şagirdlərin şəxsiyyətinin hərtərəfli inkişafına töhfə verən mühüm pedaqoji vasitələrdən biridir. Araşdırmaların nəticələrinə əsasən, qeyd etmək olar ki, ekskursiyalar şagirdlərin idrak fəallığını gücləndirməklə yanaşı, onların nəzəri bilikləri praktiki vəziyyətlərdə tətbiqetmə bacarıqlarını formalaşdırır. Eyni zamanda, şagirdlərdə sosial ünsiyyət bacarıqları, əməksevərlik və kollektiv davranış vərdişləri inkişaf edir. Ekskursiyalar zamanı əldə olunan biliklər fənlərarası inteqrasiyanı dəstəkləyir, müxtəlif fənlər üzrə öyrənilən mövzuların bir-biri ilə əlaqəli şəkildə mənimsənilməsinə şərait yaradır. Xüsusilə tarixi-memorial obyektlərə təşkil olunan ekskursiyalar milli-mənəvi dəyərlərin aşılanması, vətənpərvərlik hissinin formalaşdırılması və şagirdlərdə tarixi yaddaşın inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Beləliklə, məqsədyönlü şəkildə planlaşdırılmış və tədris məqsədləri ilə uzlaşdırılmış ekskursiyalar ibtidai təhsil pilləsində kurikulumun reallaşdırılmasına, interaktiv və səmərəli təlim mühitinin formalaşmasına, ümumilikdə isə şagirdlərin bilik, bacarıq və dəyərlərlə zənginləşdirilməsinə xidmət edən çoxşaxəli pedaqoji alət  kimi qiymətləndirilməlidir.

Eyni zamanda, ekskursiyalar uşaqlarda müşahidəçilik, analitik düşüncə və problem həlletmə bacarıqlarını inkişaf etdirir. Təbii və mədəni mühitlə birbaşa təmasda olmaq onların dünyagörüşünü genişləndirir və ətraf aləmlə əlaqəli təsəvvürlərinin formalaşmasına kömək edir. Ekskursiya zamanı baş verən real həyat hadisələrinin öyrənilməsi təlimin məzmununu aktuallaşdırır və onu şagirdlər üçün daha mənalı və yaddaqalan edir. Bu cür fəaliyyətlər təhsilin yalnız sinif otağı ilə məhdudlaşmadığını göstərir və məktəbdənkənar mühitin potensialından səmərəli istifadəni təmin edir. Şagirdlərin maraq dairəsinə uyğun seçilən marşrutlar onların motivasiyasını artırır və öyrənmə prosesinə emosional yanaşmanı gücləndirir. Ekskursiyalar, həmçinin inklüziv təlim mühitində fərdi yanaşma imkanlarını genişləndirir, müxtəlif bacarıq səviyyəsində olan şagirdlərin birgə fəaliyyətinə şərait yaradır. Bu isə məktəbdə bərabərlik və sosial ədalət prinsiplərinin reallaşdırılmasına töhfə verir. Müəllimlərin peşəkar hazırlığında ekskursiyanın planlaşdırılması və keçirilməsi metodikasının öyrənilməsi zəruri hesab edilir, çünki bu, onların pedaqoji fəaliyyətini zənginləşdirir. Ümumilikdə, ekskursiyalar ibtidai təhsil mühitində səmərəli təlim strategiyası kimi dəyərləndirilməli və pedaqoji təcrübədə daha geniş tətbiq olunmalıdır.

**Məqalənin aktuallığı.** Müasir təhsil sisteminin qarşısında duran əsas vəzifələr, şagirdlərdə XXI əsrin tələb etdiyi bacarıqları – tənqidi təfəkkür, yaradıcı yanaşma, ünsiyyət və əməkdaşlıq qabiliyyətlərini formalaşdırmaqdır. Bu baxım-

dan, tədris prosesində şagirdyönümlü və təcrübəyə əsaslanan metodların tətbiqi zəruri hesab olunur. Ekskursiyalar şagirdlərin dünyagörüşünün genişlənməsində, milli-mənəvi dəyərlərin mənimsənilməsində və vətəndaşlıq mövqeyinin güclənməsində mühüm rol oynayır. Eyni zamanda ekskursiyalar real həyatla əlaqəli öyrənmə mühitinin yaradılmasına, biliklərin praktiki tətbiqinə xidmət edir. Tədrisin elmi və praktik xarakterinin artırılmasına əhəmiyyətli təsir göstərən ekskursiyalar müasir təlim-tərbiyə prosesinin ayrılmaz komponenti kimi pedaqoji baxımdan aktuallığını qorumaqdadır.

**Məqalənin elmi yeniliyi**. Məqalədə ekskursiyalar yalnız didaktik vasitə kimi deyil, həm də şəxsiyyətin kompleks inkişafını dəstəkləyən interaktiv, fənlərarası və tərbiyəvi təlim forması kimi nəzərdən keçirilmişdir. Konkret ekskursiya nümunələri və onların tədris planına inteqrasiyası təcrübə əsasında sistemləşdirilərək pedaqoji baxımdan əsaslandırılmışdır. Bu yanaşma, təlim prosesində praktik fəaliyyətlərin əhəmiyyətini vurğulayaraq, şagirdlərin yaradıcı, tənqidi və əqli bacarıqlarının inkişafına şərait yaradır. Həmçinin, ekskursiyaların sosial-emosional təlimə, vətənpərvərlik tərbiyəsinə və əmək vərdişlərinin formalaşmasına təsiri də araşdırılmış və elmi əsaslarla izah edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunan yanaşmalar müəllimlərin illik və dərs planlaşdırmasında ekskursiyalardan effektiv istifadə etmələri üçün metodik baza yaradır. Tədqiqatın nəticələri tədris prosesində ekskursiyaların sistemli şəkildə tətbiqinə dair tövsiyələr verir və məktəbdənkənar tədbirlərin tərbiyəvi dəyərinin artırılmasına xidmət edir. Qobustan və digər nümunələr əsasında hazırlanmış fəaliyyət modelləri təhsil müəssisələrində praktik olaraq istifadə oluna bilər. Bu modellər, müxtəlif fənlərin məzmununa uyğunlaşdırılaraq, təlimin inteqrasiyasını təmin edir və təhsilalanların real həyatla əlaqəli bilik və bacarıqlar əldə etməsinə imkan yaradır. Eyni zamanda, təqdim olunan metodik çərçivə regional resurslardan istifadəni stimullaşdırır və yerli mədəni irsin öyrənilməsinə yönəlmiş təhsil strategiyalarına töhfə verir.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Rüstəmov, C. (2006). “Qobustan Azərbaycanın qədim mədəniyyət ocağı”. Bakı, “Nurlar”. 96 s.
2. Rüstəmov, C. (1994). “Qobustan dünyası”. Bakı. 176 s.
3. Rüstəmov, C. (2003). “Qobustan petroqlifləri”, I kitab. Bakı. 55 s.
4. Əliyev, F. (2012). “Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi” (metodik vəsait). Bakı.156 s.
5. Cəfərzadə, İ. (1973). “Qobustan qayaüstü təsvirlər”. Bakı.130 s.

6. Nazarova, N.F. (2009). Metodika provedeniya ekskursiy v nachalhikh klassax". 39 s.
7. Qranik, Q.İ. (1985). "Ekskursiya v nachalnoy shkole". Moskva: Prosvesheniye, 24 s.
8. UNESCO. (2007). Gobustan Rock Art Cultural Landscape. https://whc.unesco.org/en/list/1076
9. Behrendt, M., & Franklin, T. (2014). A review of research on school field trips and their value in education. International Journal of Environmental and Science Education, 9(3), 235–245.
10. DeWitt, J., & Storksdieck, M. (2008). A short review of school field trips: Key findings from the past and implications for the future. Visitor Studies, 11(2), 181–197. https://doi.org/10.1080/10645570802355562
11. Kisiel, J. (2005). Understanding elementary teacher motivations for science field trips. Science Education, 89(6), 936–955. https://doi.org/10.1002/sce.20085

# ORGANIZATIONAL FORMS FOR DEVELOPING CLASSROOM STRATEGIES BASED ON THE CATEGORIES OF STUDENTS WITH DISABILITIES

**Lala Mammadova**

Azerbaijan State Pedagogical University
Lecturer at the Department of Special Education
E-mail: lale_memmedova95@bk.ru
https://orcid.org/0009-0004-0683-7191

**Abstract**. Organizing the teaching process based on classroom strategies has a significant impact on students with special educational needs. Through properly structured strategies, teachers can achieve the desired outcomes in the learning process. In addition to involving every student with limited health capacities in the educational environment, it is essential to foster collaboration and communication among them.

This article discusses the organization of the classroom environment in accordance with the needs of students with hearing, visual, and physical impairments and ensuring accessibility during the teaching process. It also analyzes the adaptation and implementation of strategies based on students' age and individual characteristics. The findings indicate that the correct application of classroom strategies contributes to the development of students' communication and integration skills. Moreover, the article focuses on methods and specific strategies used to develop the social skills of students with intellectual disabilities and explores effective approaches for implementing these strategies in inclusive classrooms.

**Keywords:** children with disabilities, inclusive classrooms, teaching, strategy, form and methods.

**DOI:** 10.30546/2709-2488.2.2025.0035
**To cite this article:** Mammadova L. (2025). Organizational forms for developing classroom strategies based on the categories of students with disabilities. *Journal of Preschool and Primary Education*, Vol. 251, Issue II, pp. 61-74.
**Article history:** received – 09.04.2025; accepted – 30.05.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD ŞAGİRDLƏRİN KATEQORİYALARINA UYĞUN SİNİF STRATEGİYASININ QURULMASININ TƏŞKİLİ FORMALARI

**Lalə Məmmədova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Xüsusi təhsil kafedrasının müəllimi
E-mail: lale_memmedova95@bk.ru
https://orcid.org/0009-0004-0683-7191

**Annotasiya.** Təlim prosesinin sinif strategiyalarına əsaslanaraq qurulması xüsusi qayğıya ehtiyacı olan şagirdlərə effektiv təsir göstərir. Düzgün qurulan strategiya vasitəsilə müəllimin təlim prosesində istənilən nəticəyə nail olması mümkündür. Sağlamlıq imkanları məhdud şagirdlərin hər birini təlimə cəlb etməklə yanaşı, onlar arasında əməkdaşlıq və ünsiyyət formalaşdırmaq vacib amillərdən biridir. Məqalədə eşitmə, görmə və fiziki məhdudiyyətli uşaqların təhsil ehtiyaclarına uyğun olaraq sinif mühitinin təşkili, dərs prosesinin əlçatanlığının təmin edilməsi, eləcə də tətbiq olunan strategiyaların şagirdlərin yaş və fərdi xüsusiyyətlərinə uyğun müəyyənləşdirilməsi və həyata keçirilməsi yolları araşdırılır. Qeyd olunur ki, sinifdə strategiyaların düzgün şəkildə tətbiqi uşaqların ünsiyyət və inteqrasiya bacarıqlarının inkişafında mühüm rol oynayır və onların sosial mühitə uyğunlaşmasını asanlaşdırır. Məqalədə əqli məhdudiyyətli uşaqların təlim-tərbiyə prosesində sosial bacarıqlarının formalaşdırılması məqsədilə istifadə olunan yanaşmalar və tətbiq olunan xüsusi strategiyalar ətraflı şəkildə izah olunur.

**Açar sözlər:** sağlamlıq imkanları məhdud uşaqlar, inklüziv siniflər, təlim, strategiya, forma və metodlar.

**DOI:** 10.30546/2709-2488.2.2025.0035
**Məqaləyə istinad:** Məmmədova L. (2025). Sağlamlıq imkanları məhdud şagirdlərin kateqoriyalarına uyğun sinif strategiyasının qurulmasının təşkili formaları. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (251), səh. 61-74.
**Məqalə tarixçəsi:** göndərilib – 09.04.2025; qəbul edilib – 30.05.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Məqalədə sağlamlıq imkanları məhdud şagirdlərin kateqoriyalarına uyğun, düzgün təşkil olunmuş sinif strategiyasının şagirdlərin təhsil həyatına və sosial-emosional inkişafına təsirləri elmi əsaslarla təhlil olunur. Sağlamlıq imkanları məhdud uşaqlar – xüsusi şərait yaradılmadan təhsil həyatında müəyyən çətinliklərlə qarşılaşan, fiziki çatışmazlığı, əqli və ya psixi ləngimələri olan şəxslərdir. İnklüziv təhsil – xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim prosesində tamhüquqlu iştirakını dəstəkləyən təlim metodudur. Bu metod hər bir uşağa bərabər imkanlar yaratmaqla kifayətlənmir, həm də fərqli maraq, bacarıq və ehtiyaclara malik şagirdlərin sosiallaşması, qəbul olunması və cəmiyyətə inteqrasiyası üçün əlverişli şərait yaradır.

Sağlamlıq imkanları məhdud olan uşaqların fərdi öyrənmə ehtiyacları nəzərə alınaraq, tədris metodlarının fərdiləşdirilməsi əsas məsələlərdən biridir. Bu yanaşma, hər bir şagirdin potensialını maksimum dərəcədə inkişaf etdirmək üçün əsas zəmin yaradır. "Şagirdləri təlim prosesində öyrənməyə necə təşviq etmək olar?" sualına cavab olaraq, deyə bilərik ki, bu işdə sinif strategiyasının düzgün qurulması bizə kömək edir. Sinif strategiyasının düzgün qurulması – təlim prosesində çevik olmaq, istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun təlim prosesinin keyfiyyətli təşkilində mühüm rol oynayır. Bu yanaşma, tədrisdə şagirdlərin bərabər imkanlara malik olmasını təmin etmək üçün nəzərdə tutulmuşdur.

Sinif strategiyasının qurulmasında təlim metodlarının müəyyənləşdirilməsi vacib şərtdir. İnklüziv təhsildə təlimin məzmunu, forma və vasitələrini seçərkən əlçatanlıq prinsipi nəzərə alınmalıdır. Sağlamlıq imkanları məhdud uşaqlar, sosial vəziyyətindən, əqli qabiliyyətindən və fiziki imkanlarından asılı olmayaraq təlim prosesinə cəlb edilərək yaş xüsusiyyətləri və qüsurun ağırlıq dərəcəsinə uyğun inkişaf etdirilməlidir.

SİM şagirdlərin təlim-tərbiyəsi, onların cəmiyyət həyatında tam iştirakı, müxtəlif peşə və ictimai fəaliyyət növlərində özünü realizə etmələri üçün ən vacib şərtlərdən biridir.

Xüsusi qayğıya ehtiyacı olan şagirdlərdə təlim-tərbiyənin ən əsas prinsipləri fəaliyyət və şüurdur. Əlilliyi olan şagirdlərin fəaliyyəti, biliklərin müstəqil əldə edilməsi prosesinin əzbərlənməsinə yönəldilməli, təlim materialları onların ehtiyaclarına uyğunlaşdırılmalıdır. Yəni, öyrənmə və qavrama qabiliyyətlərinə uyğun məzmun seçilərək müxtəlif təlim metodlarından istifadə edilməlidir. Təlim prosesləri, uşaqların fərdi öyrənmə ehtiyaclarına uyğun şəkildə planlaşdırılaraq elə təşkil edilməlidir ki, sinif şəraitində öyrənmə, müzakirə və praktiki fəaliyyət-

lərə mümkün qədər vaxt və enerji ayrılsın.

SİM uşaqları, müxtəlif kateqoriyalar üzrə təlim prosesinə adaptasiya etmək üçün düzgün və səriştəli sinif strategiyasının qurulması zəruridir. Düzgün qurulan strategiya vasitəsilə təlim prosesində istənilən nəticəyə nail olmaq, şagirdlərin hər birini dərsə cəlb etmək, şagirdlər arasında əməkdaşlıq və ünsiyyət formalaşdırmaq mümkündür [Azərbaycan Respublikası., 2001]. Bu, əsasən, eşitmə məhdudiyyətli uşaqlar üçün təhsil ehtiyaclarına uyğun şəkildə sinif mühitini təşkil etmək və dərs prosesini daha əlçatan etmək məqsədi daşıyır.

Görmə məhdudiyyətli uşaqlar üçün sinifdə tətbiq olunan strategiyalar, onların təhsil almasını asanlaşdırmağa və fərdi ehtiyaclarına uyğunlaşdırmağa xidmət edir. Fiziki məhdudiyyətli uşaqlar üçün sinif strategiyaları hazırlanarkən, onların fərqli ehtiyaclarına uyğun şəkildə mühitin tənzimlənməsi vacibdir. Əqli məhdudiyyətli uşaqlar üçün sinif strategiyaları, onların təhsilini və sosial bacarıqlarını inkişaf etdirmək üçün xüsusi yanaşmalar tələb edir. Bu uşaqları ehtiyaclarına uyğun tədris metodları və mühitlə təmin etmək vacibdir. Ünsiyyət və inteqrasiya problemləri olan uşaqlar üçün sinifdə tətbiq olunan strategiyalar, onların təhsil həyatını asanlaşdırmaq və sosial bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır [Azərbaycan Respublikası Təhsil Nazirliyi., 2013].

Təlimin əsas məqsədi yalnız bilik və bacarıqların ötürülməsi deyil, eyni zamanda şagirdlərin öyrəndiklərini müxtəlif formalarda ifadə etmələrinə şərait yaratmaqdır. Fərqli xüsusiyyətlərə malik şagirdlər, öz fikirlərini müxtəlif yollarla – danışaraq, yazaraq və ya başqa vasitələrlə daha yaxşı çatdıra bilərlər. Bu səbəbdən, tədris zamanı şagirdlərin özünüifadə və ünsiyyət formalarına seçim azadlığı verilməli, onların fərdi yanaşmaları təşviq olunmalıdır.

Müəllimin düzgün seçilmiş təlim strategiyaları, şagirdlərdə özünüdərketmə, ünsiyyət bacarıqları, özünüidarəetmə və sosial şüurun formalaşmasına töhfə verir.

SİM şagirdlərə uyğun sinif strategiyasının qurulmasının üstünlükləri:

- ümumi təhsil müəssisəsində xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün xüsusi tədris şəraitinin yaradılması;
- bütün şagirdlərin təhsil tələbatlarını ödəyə biləcək, münbit adaptiv təhsil mühitinin yaradılması;
- xüsusi ixtisaslı mütəxəssislər tərəfindən şagirdə lazımi psixoloji və pedaqoji dəstək verilməsi;
- xüsusilə eşitmə qabiliyyəti zəif olan uşaqlar üçün bu cür tədris şəraitinin yaradılmasının inkişafın maksimum səviyyəsinin əldə olunmasına, habelə uşağın sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyasına təsirləri;
- tolerantlığın (mərhəmət, qarşılıqlı hörmət) formalaşması.

Bununla yanaşı, təhsil müəssisələrində xüsusi qayğıya ehtiyacı olan uşaqlar

üçün sosial mühitin əlverişli şəkildə təşkili və onların ümumi təhsil siniflərinə inteqrasiyası, sosial bacarıqların, tolerantlığın, şəxsiyyətlərarası münasibətlərin qurulması və özünəinamın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu proses düzgün planlandıqda, şagirdlərdə sosial kompetensiyalar uğurla formalaşır və onların cəmiyyətə uyğunlaşması daha sağlam şəkildə həyata keçirilir.

## Əsas hissə / Main part

Sağlamlıq imkanları məhdud şagirdlərin dərsin məzmununu yaxşı mənimsəməsi üçün onların təlim prosesinə maraq göstərməsi vacibdir. Bu məqsədlə müəllim, onları dərsə motivasiya etmək üçün rəngarəng və çevik yanaşmalardan istifadə etməlidir. Dərs prosesinin faydalı olması üçün motivasiyanın düzgün qurulması mühüm şərtlərdən biridir. Çünki motivasiya şagirdlərdə idrak prosesini hərəkətə gətirir, onları prosesə fəal cəlb olmağa təşviq edir. Öyrənməni real həyatla əlaqələndirmək və davamlı maraq oyatmaq lazımdır. “Niyə uşağın düşündüyü mətnlə maraqlanıram? Niyə mətnə maraq göstərməyə davam etməliyəm?”. Bu prinsip beynin emosional şəbəkələrinə uyğundur. Şagirdlərə özünü ifadə etmək üçün imkan yaradın. Şagirdlərin motivasiyasını artırmaq və onların diqqətini cəlb etmək üçün müxtəlif strategiyalardan istifadə edin [“İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının oxu materialı., 2019].

***Eşitmə məhdudiyyətli uşaqlar*** üçün sinif strategiyaları, onların təhsil ehtiyaclarına uyğun şəkildə sinif mühitinin təşkil olunması və dərs prosesini daha əlçatan etmək məqsədi daşıyır. Belə uşaqlar üçün effektiv ola biləcək bəzi strategiyalar aşağıda təqdim edilmişlər:

- **Vizual təlim metodları.** Eşitmə məhdudiyyəti olan uşaqlar üçün, əsasən, vizual məlumatlar daha təsirli olur. Buna görə müəllimlərin təlim prosesində vizual materiallardan istifadə etməsi daha əlverişlidir. Eşitmə məhdudiyyəti olan uşaqların başa düşməsi üçün əyani vasitələrin maksimallaşdırılması məqsədilə otağın yaxşı işıqlandırılması təmin edilməlidir. Dərslərdə şəkillər və qrafiklərdən istifadə etmək mövzunun daha yaxşı başa düşülməsini təmin edir. Müəllimlər dərsin əsas məqamlarını lövhəyə yazmalı, vacib anlayışları vurğulamalıdırlar.
- **İşarə dili və alternativ ünsiyyət.** Uşaqların anlayışını artırmaq və onlarla daha effektiv ünsiyyət qurmaq üçün işarə dilindən istifadə etməlidirlər. Uşaqların verdiyi sualları, izahları və ünsiyyət zamanı səsləndirilən məlumatları müəllimlər yazılı formada da təqdim edə bilərlər. Eşitmə məhdudiyyətli uşaqlarda nitq məhdudiyyətləri ola bilər. Anlaşılmayan sözlər və oxu tapşırıqları müzakirə edilməlidir. İfadələr və jest-mimikalarla əlavə izahlar vermək də çox faydalıdır.

- **Sinifdə akustik şəraitin yaxşılaşdırılması.** Sinifdə akustik sistem və ya mikrofonlardan istifadə edilməsi, müəllimin səsini eşitməkdə çətinlik çəkən uşaqlar üçün vacibdir. Arxa fondakı səsləri azaldın. Sinfi elə təşkil edin ki, qrup müzakirəsi zamanı eyni anda yalnız bir şagird danışsın. Əgər şagirdin eşitmə cihazı varsa, onların sinifdə uyğun şəkildə işləməsini təmin etmək lazımdır.
- **Qrup işləri və interaktiv təlim.** Eşitmə məhdudiyyətli uşaqların sosial bacarıqlarını inkişaf etdirmək üçün qrup işləri təşkil edilə bilər. Qrup şəklində aparılan işlər və interaktiv təlim yanaşmaları, vizual və kinestetik öyrənmə metodlarının tətbiqinə geniş imkan verir. Texnoloji vasitələrdən istifadə, şagirdlərin dərs prosesində daha fəal iştirakını təşviq edir.
- **Müəllimin istiqamətləndirməsi və dəstəyi.** Müəllimlər daha yavaş və aydın danışmalı, sözləri düzgün şəkildə tələffüz etməli, vurğulamaq istədikləri məqamları təkrarlamalı və eşitmə qüsurlu uşaqları ön sırada əyləşdirməlidir. Müəllim dərs zamanı şagirdlərlə gözlə əlaqə quraraq onlara diqqət göstərməlidir. Danışarkən həmin uşağın dodaqlarınızı gördüyünə əmin olun, onlar dodaqdan oxuyaraq müzakirəyə qoşula bilirlər. Üzünüz yazı lövhəsinə tərəf olduqda isə danışmayın.
- **Fərdi yanaşma.** Hər bir uşağın ehtiyaclarına uyğun fərdi tədris planları hazırlanmalıdır. Müəllim, dərsin tempini uşağın ehtiyaclarına uyğun olaraq tənzimləməlidir.
- **Sosial inkişafın dəstəklənməsi.** Eşitmə məhdudiyyətli uşaqların sinif və məktəb mühitində sosiallaşmalarını təmin etmək üçün müxtəlif sosial fəaliyyətlər təşkil oluna bilər. Bu fəaliyyətlərdə həm sinifdaxili, həm də siniflərarası əməkdaşlıq və ünsiyyətə yer verilməlidir. Belə uşaqların sağlam həmyaşıdları ilə birgə təlim prosesinə cəlb olunması, onların sosial bacarıqlarının formalaşmasına və inkişafına müsbət təsir göstərəcək.
- **Tədris materiallarının uyğunlaşdırılması.** Eşitmə məhdudiyyətli uşaqlar üçün yazılı kitablar, vizual video dərslər və digər xüsusi tədris materiallarının təqdim olunması, onların öyrənmə prosesinə müsbət təsir göstərə bilər. Nitqi mətnə çevirən funksiyaya malik kompüterlə təmin edilməsi, eşitmə məhdudiyyətli uşaqların öyrənmə tərzinə uyğun müxtəlif tədris vasitələrindən istifadəsi (rəsmlər, videolar və s.) faydalıdır.
- **Təlimə aktiv iştirakın təşviqi.** Eşitmə məhdudiyyəti olan uşaqların diqqətini dərsə yönəltmək üçün tapşırıqlar qısa və anlaşılan olmalıdır. Müəllimlər açıq və qapalı suallar verərək uşaqların fəal iştirakını təmin edə bilərlər.
- **Texnoloji alətlərin istifadəsi.** Təlim zamanı eşitmə məhdudiyyəti olan uşaqlar üçün videolar və yazılı materiallar faydalıdır. Videoların həm işarə dili, həm də subtitrlərlə təqdim edilməsi, məlumatın daha yaxşı ötürülməsini tə-

min edir. Məktəb mühitinə uyğunlaşdırılmış xüsusi tədris proqramları, həmçinin yazılı və işarət dilinə tərcümə edə bilən mobil tətbiqlərdən istifadə etmək mümkündür [İnklüziv təhsil (məlumat kitabçası)., 2018].

Bu strategiyaların tətbiqi, eşitmə məhdudiyyəti olan uşaqların təhsil almasını asanlaşdıracaq və onların sosial, emosional və akademik inkişafını dəstəkləyəcək. Uşaqlara həm fərdi, həm də kollektiv yanaşma nümayiş etdirilməli, hər birinin potensialının formalaşdırılması üçün müvafiq şərait təmin olunmalıdır.

***Görmə məhdudiyyətli uşaqlar*** üçün tətbiq edilən strategiyalar isə uşaqların təhsil prosesini sadələşdirmək və fərdi tələbatlarına uyğunlaşdırmaq məqsədi daşıyır. Belə uşaqlar üçün əsas strategiyalar aşağıda qeyd edilmişdir:

- **Əlavə şrift və kontrast.** Böyük şrift və yüksək kontrastlı yazılar istifadə etmək, görmə məhdudiyyəti olan uşaqlar üçün əlverişlidir. Məsələn, lövhədə ağ ekranda qara yazı və ya qara ekranda ağ yazıları nümunə göstərmək olar. Böyük yazı formatlarında dərs materialları hazırlamaq daha məqsədəuyğundur. Uşaqlara yazılı tapşırıqlar təqdim edilərkən, məlumatın qısa formada və iri hərflərlə yazıldığına diqqət yetirilməlidir.
- **Təsvirlər və şəkillərin təsviri.** Verilən tapşırıqları həm yazılı, həm də şifahi formada təqdim etmək məqsədəuyğundur. Hər bir söz, lövhədə yazıldığı kimi tələffüz edilməlidir. Sinifdəki vizual məlumatların şifahi təsvirlərini təmin edin. Şəkil, qrafik və ya diaqramların hər biri izah olunaraq uşağın onları mənimsəməsi təmin edilməlidir.
- **Texnologiya və alətlərdən istifadə.** Görmə məhdudiyyətli uşaqlar üçün nəzərdə tutulmuş ekran oxuyucular, brayl yazıları və ya səsli kitablardan istifadə edilməsi daha səmərəlidir. Tablet kompüterdən istifadə edərək dərsləri interaktiv etmək mümkündür. Bir çox proqram və tətbiq, görmə problemi olan şagirdlərə uyğunlaşdırılıb. Sinifdə aparılan qeydlərin surəti uşaqlara təqdim edilməli, onlara iPad və ya planşet vasitəsilə məlumatları qeyd etmək üçün şərait yaradılmalıdır. Lazım olduğu halda, diktofona yazılmış mətnlərdən də istifadə edilməsi tövsiyə olunur.
- **Əl ilə təcrübə və təmas.** Uşaqların dərsləri daha yaxşı mənimsəmələri üçün sensor təcrübələr təşkil edilməlidir. Məsələn, əşyaları tutmaq, toxunmaq və ya hərəkətlərlə izah etmək. Bədii işlər və ya təcrübələr zamanı materialların fiziki olaraq onlara təqdim edilməsi faydalıdır.
- **Fərdi yanaşmalar və dəstək.** Fərdi ehtiyaclarına uyğun olaraq, görmə məhdudiyyətli uşaqlara əlavə vaxt və ya xüsusi dəstək verilməlidir. Onlar üçün köməkçi müəllimlər və ya xüsusi dəstək xidmətlərindən istifadə etmək faydalı ola bilər.
- **Verbal ünsiyyət və istiqamətləndirmə.** Görmə məhdudiyyəti olan uşaqlar təlim yerlərində oriyentasiya və səfərbərlikdə köməyə ehtiyac duyurlar.

Sinfin planı, kitabxana, yeməkxana və məktəbin digər əsas ərazilərinə bələd olması üçün görmə məhdudiyyətli uşaqlara vaxt verilməlidir ki, onları əhatə edən mühit ilə tanış olsunlar. Məktəbin planı və məktəbin fövqəladə hallar üzrə prosedurları (məsələn, tualet, idman zalı, kitabxana, yeməkxana, təlimat otağı, oyun meydançası və s.) onlara aydın şəkildə təqdim olunmalıdır. Şagirdləri yönləndirmək üçün sinifdə verbal təsvirlərdən (məsələn, "Sinif otağının ortasında bir masa var") istifadə edilməlidir.

- **Əlavə materiallar və dəstək.** Oxumaq və yazmaq üçün şagirdlərə daha çox vaxt verilməsi tövsiyə olunur. Onlara tapşırıqları yerinə yetirmək üçün daha qalın uclu marker və ya yazı alətindən istifadə etməyə icazə verilməli, brayl əlifbası ilə yazılar (kitablar, tədris materialları) təklif edilməlidir.
- **Yaradıcı və qrup işləri.** Görmə məhdudiyyəti olan şagirdlərə tapşırıqları daha qısa yazılmış variantda təqdim etmək və ya öyrəndiyini fərqli vasitə ilə nümayiş etdirmək üçün icazə verilməsi tövsiyə olunur. Görmə məhdudiyyətli uşaqlar adlar ilə simaları əlaqələndirməyə bilərlər, ona görə də həmin uşaqlara öz sinif yoldaşları ilə tanış olmaq üçün vaxt verilməlidir. Onların sinif yoldaşları ilə kiçik qruplarda və ya fərdi şəkildə sosiallaşmalarını təmin etmək üçün məqsədyönlü fəaliyyət və təcrübələr təşkil edilməlidir. Toxuma və ya rəngləmə kimi yaradıcı metodlardan istifadə etməklə şagirdlərin bu fəaliyyətə cəlb edilməsi üçün şərait yaradılmalıdır ["İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı., 2019].

Bu strategiyalar uşağın ehtiyaclarına uyğunlaşdırılmalıdır, çünki hər bir görmə məhdudiyyətində öyrənmə fərqli şəkildə təzahür edə bilər. Əsas məqsəd, uşaqların sinifdə bərabər imkanlara malik olmalarını təmin etməkdir.

***Fiziki məhdudiyyətli uşaqlar*** üçün sinif strategiyaları hazırlanarkən, mühitin onların fərqli ehtiyaclarına uyğun şəkildə tənzimlənməsi vacibdir. Belə uşaqlar üçün əsas strategiyalar aşağıda qeyd edilmişdir:

- **Fiziki mühitin təşkili.** Sinif otağında əşyalar uşaqların hərəkətliliyinə uyğun şəkildə yerləşdirilməlidir. Əlil arabalarından istifadə edən şagirdlər üçün sinif otağında geniş keçid yolları və əyani vəsaitlər, informasiya materialları və təchizatlardan istifadə əlçatan olmalıdır.
- **Çoxsaylı təlim üsulları.** Fiziki məhdudiyyətli şagirdlərin qavrama və mənimsəmə üsulları digərlərindən fərqli ola bilər. Bu səbəbdən onlara vizual, eşitmə və toxunma əsaslı təlim yanaşmaları daha təsirli olur.
- **Fərdi tədris planları.** Hər bir şagirdin fərdi inkişaf xüsusiyyətləri və ehtiyacları nəzərə alınmaqla, onlara uyğun fərdi tədris planları tərtib edilməlidir. Bu planlar, uşaqların dərsə uyğunlaşmasını və öz potensiallarını tam şəkildə istifadə etmələrini təmin edər.
- **Dəstək və köməkçi vəsaitlər.** Fiziki məhdudiyyətli uşaqlar üçün xüsusi tex-

noloji cihazlardan (məsələn, səsli oxuyucular, kompüter proqramları, adaptiv alətlər) istifadə oluna bilər. Bu vasitə ilə uşaqlar məlumatı kompüter, kiçik səsyazan və ya kamera kimi texnoloji alətlərlə qeydə ala bilərlər. Fiziki məhdudiyyətli uşaqlar, onların kompüterdən istifadəsinə yardımçı olmaq üçün hazırlanmış alternativ giriş cihazları ilə (məsələn, sensor ekranlar və s.), yazmaqda çətinliyi olan uşaqlar qeydə alan cihazlarla təmin edilməlidir.

- **Qrup işləri və inklüziv fəaliyyətlər.** Fiziki məhdudiyyətli uşaqların sosial bacarıqlarını inkişaf etdirmək və digər uşaqlarla qarşılıqlı əməkdaşlıqlarını gücləndirmək üçün inklüziv fəaliyyətlər planlaşdırılmalıdır. Bu, həm sosial bacarıqlarının inkişafını dəstəkləyər, həm də digərləri ilə əməkdaşlıq etməyə təşviq edər.
- **Müsbət rəy və təşviq.** Uşaqlara müsbət rəy verilməsi onların özünə inamını artıracaq və motivasiya edəcək. Fiziki məhdudiyyətlərinə baxmayaraq, hər bir uşağın bacarıqlarını və uğurlarını rəğbətləndirmək önəmlidir.
- **Zaman dəstəyi.** Uşaqların sinfə daxil olub–çıxmaları zamanı əlavə vaxta ehtiyac duya biləcəkləri nəzərə alınmalı, qrup fəaliyyəti və yerdəyişmə prosesində onlara rahat hərəkət etmələri üçün kifayət qədər vaxt ayrılmalıdır. Tapşırıqları yerinə yetirərkən əlavə vaxt verilməsi, uşaqların fərdi öyrənmə tempinə uyğun irəliləmələrinə imkan yaradır. Uşaqlar tez yorulurlarsa, tapşırığı bitirmək üçün onlara əlavə vaxt verilməli, özlərini rahat hiss edəcəkləri bir mühitlə təmin edilmələri vacibdir.

Bu strategiyalar fiziki məhdudiyyətli uşaqların təhsil almasını daha əlverişli və inklüziv edərək, bacarıqlarını inkişaf etdirməkdə mühüm rol oynaya bilər [İnklüziv təhsil üzrə müəllim inkişaf proqramları, 2019].

Əqli məhdudiyyətli uşaqlar üçün sinifdə istifadə olunan strategiyalar, onların təhsilini və sosial bacarıqlarını inkişaf etdirmək üçün xüsusi yanaşmalar tələb edir. Belə uşaqların ehtiyaclarına uyğun tədris metodları və mühit təmin etmək vacibdir. Əqli məhdudiyyətli uşaqlar üçün effektiv olan bəzi sinif strategiyaları aşağıda qeyd edilmişdir:

- **Sadə və aydın təlimatlar.** Əqli məhdudiyyətli uşaqlara dərsləri izah edərkən sadə, qısa və aydın cümlələrdən istifadə etmək lazımdır. Mürəkkəb və uzun təlimatlar onları çaşdıra bilər. Böyük tapşırıqları kiçik parçalara ayırın. Təlimatların daha yaxşı qavranılması üçün şagirdə eyni anda yalnız bir mərhələyə aid göstərişlər verilməlidir.
- **Vizual köməkçilərdən istifadə.** Təlimləri dəstəkləmək üçün şəkillər, şəkil kartları, videolar və digər vizual köməkçilərdən istifadə etmək çox faydalıdır. Vizual materiallar uşaqların tədris olunan materialı daha yaxşı qavramalarına kömək edə bilər.
- **Çoxlu təkrarlamalar.** Əqli məhdudiyyətli uşaqlar yeni məlumatları daha

çox təkrarlama yolu ilə öyrənirlər. Bu səbəbdən tədris olunan materialın təkrarlanması və müxtəlif yollarla təqdim edilməsi vacibdir.

- **Qısa dərs müddətləri.** Dərs saatının qısa müddətli olması diqqəti yayındırmamaq üçün faydalıdır. Dərslər arasında nəzərdə tutulan qısa fasilələr şagirdlərin diqqətini cəmləməsinə və təlim prosesinə daha fəal qoşulmasına şərait yarada bilər.
- **Fərdiləşdirilmiş yanaşma.** Təlim prosesində hər bir şagirdin fərdi ehtiyacları nəzərə alınaraq uyğun metodlardan istifadə edilməlidir. Bəzi uşaqlar daha çox vizual yardıma ehtiyac duyarkən, digərləri əyani təcrübələrdən faydalana bilərlər.
- **Müsbət gücləndirmə.** Əqli məhdudiyyətli uşaqları motivasiya etmək və müsbət davranışlarını təşviq etmək üçün rəğbətləndirmə metodundan (məsələn, təriflər, ulduzlar və ya kiçik mükafatlar) istifadə etmək vacibdir. Bu, uşaqların özlərinə inamını artırır.
- **Hərəkətli fəaliyyətlər.** Əqli məhdudiyyətli şagirdlərin həm motor bacarıqlarını inkişaf etdirmək, həm də diqqətlərini toplamaq məqsədilə müxtəlif hərəkətli oyunların, fəaliyyətlərin və praktik tapşırıqların tətbiqi tövsiyə olunur.
- **Sosial bacarıq tədrisi.** Bu kateqoriyaya aid uşaqlar üçün ünsiyyət qurmaq, əməkdaşlıq etmək və münaqişələri həll etmək bacarıqlarını formalaşdırmaq məqsədilə sadə və aydın təlimlər təqdim olunmalıdır.
- **Davamlı əlaqə və əməkdaşlıq.** Şagirdin inkişaf prosesini dəstəkləmək üçün müəllimlə yanaşı valideynlər və digər mütəxəssislərlə daimi əməkdaşlıq və informasiya mübadiləsi həyata keçirilməlidir.
- **Audiomateriallardan istifadə.** Uşağın mətni oxumaqdansa, onu dinləməsinə şərait yaradılmalı və tədris prosesində audiomateriallardan istifadə olunmalıdır. Təlim, yalnız oxu kitabları vasitəsilə deyil, həmçinin audio kitablar, kinolar və digər media vasitəsilə keçilməlidir [Ağayeva, T.H., 1999].

Bu strategiyalar uşaqların təhsilinə dəstək olmaqla yanaşı, onların inkişafını və sosial inteqrasiyasını da asanlaşdıracaqdır. Hər bir uşağın fərdi ehtiyaclarına uyğun yanaşma nümayiş etdirmək çox önəmlidir.

Ünsiyyət və inteqrasiya problemləri olan uşaqlar üçün sinifdə tətbiq olunan strategiyalar, onların təhsil həyatını asanlaşdırmaq və sosial bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Belə uşaqlar üçün uyğun sinif strategiyalarına bunları qeyd etmək olar:

- **Aydın və sadə təlimatlar.** Uşaqlara hər zaman aydın və qısa təlimatlar verin. Mürəkkəb cümlələrdən və çoxlu məlumat verilməsindən çəkinin. Təlimatları addım-addım izah edin və dəfələrlə təkrarlayın. Daha az seçimlər verin. Uşaqdan bir rəng seçməsini istəyirsinizsə, ona seçim üçün iki və ya üç variant

göstərin. Uşaqlara seçim təqdim edərkən daha konkret variantlar təklif etmək məqsədəuyğundur. "İndi nə etmək istəyirsən?" soruşmaq əvəzinə "Oxumaq, yoxsa çəkmək istəyirsən?" kimi suallar vermək onların qərar verməsini asanlaşdırır və daha səmərəli nəticələr əldə etməyə kömək edir.

- **Vizual dəstək.** Uşaqlara vizual vasitələr (şəkillər, sxemlər, yazılı təlimatlar) təqdim edilməlidir. Bu, onlara tapşırıqları və gündəlik fəaliyyətləri başa düşməkdə kömək edəcək. Təsvirlər, cədvəllər və rəngli etiketlərdən istifadə edilə bilər .
- **Kiçik qruplarla iş.** Uşaqlar kiçik qruplarda və ya birbaşa cütlərlə işləməyə təşviq edilməlidir. Onların sosial bacarıqlarını inkişaf etdirmək və özlərini daha təhlükəsiz hiss etmələrini təmin etmək üçün kiçik qruplarda və ya cütlərlə işləmək təsirli yanaşmalardan biridir. İş tapşırıqları onların inkişaf səviyyəsinə uyğun olaraq bölüşdürülməlidir.
- **İnteraktiv fəaliyyətlər.** Uşaqların ünsiyyət qurmasını təşviq edən interaktiv və əyləncəli fəaliyyətlərin təşkil edilməsi tövsiyə olunur. Bu fəaliyyətlərin təşkili uşaqların sosiallaşmasına müsbət təsir edəcək. Rol oyunları və ya kollektiv layihələr kimi fəaliyyətlər onların sosial əlaqələrini gücləndirə bilər.
- **Sosial bacarıqların tədrisi.** Ünsiyyət və sosial bacarıqları öyrətmək üçün xüsusi məşğələlər təşkil edin. Məsələn, göz teması qurma, sıra gözləmə və ya digər uşaqlarla qarşılıqlı əlaqələrə necə girəcəyini öyrədin. Sosial ssenarilər üzərində təlimlər və müzakirələr keçirərək uşaqları real həyatda qarşılaşa biləcəkləri vəziyyətlərə hazırlayın.
- **Təkrar və təcrübə.** Uşaqlara öyrəndikləri bilik və bacarıqların real həyat vəziyyətlərində tətbiq etmələrinə şərait yaradılmalıdır ki, onların praktik tətbiqetmə bacarıqları möhkəmlənsin. Hər bir uşağın fərdi irəliləyişini izləmək və inkişaf tempinə uyğun təkrarlama vaxtları təşkil etmək tövsiyə olunur. Bir fəaliyyətin bitməsi və digər fəaliyyətin başlaması haqqında məlumat verməyi gündəlik qaydaların bir parçasına çevirin.
- **Əlverişli mühit yaradılması.** Uşaqların daha yaxşı uyğunlaşmaları və effektiv öyrənmələri üçün sinfin fiziki mühiti tənzimlənməlidir. Şagirdlərin diqqətinin dərsə yönəlməsini təmin etmək məqsədilə həddindən artıq səs-küylü mühitlərdən uzaq durmaq tövsiyə olunur ["İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı., 2019].

Bu strategiyalar uşaqların kommunikasiya və inteqrasiya bacarıqlarını inkişaf etdirmək və onlara sosial mühitdə daha yaxşı uyğunlaşma şansı yaratmaq üçün faydalı ola bilər.

## Nəticə / Conclusion

Tədris prosesində təlim strategiyalarından istifadə edərkən, bu prosesdə müəllimlərin valideynlərlə birgə, əməkdaşlıq şəraitində işləməsi məqsədəuyğundur. Valideynlər təlim strategiyaları ilə öyrənmə mühitinin sağlamlıq imkanları məhdud uşaqlar üçün nə qədər faydalı olduğunu anlamaya bilərlər. Bu səbəbdən, valideynləri təlim strategiyaları ilə bağlı maarifləndirmək, onların başa düşəcəyi dildə sadə məqalə və ya buklet hazırlamaq olar. Müəllim ailələrlə işləyərək hər bir valideynin maariflənməsinə nail ola bilər. SİM şagirdlərlə təlim strategiyalarının tətbiq edilməsi və son illər istər məktəbəqədər, istərsə də orta təhsil sahəsində aparılan islahatların sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri üçün yeni ümidlər yaradacağını qeyd etmək istərdim. Belə ki, son illər ölkəmizdə inklüziv təhsilin inkişaf etdirilməsi istiqamətində atılan addımları və bu sahədəki mövcud çətinliklərin aradan qaldırılmasında təlim strategiyalarından istifadə edilməsinin əhəmiyyətini vurğulamaq düzgün olar [Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi., 2018]. Sağlamlıq imkanları məhdud olan uşaqların keyfiyyətli təhsilə çıxışını təmin etmək və onların cəmiyyətə daha sürətli uyğunlaşmasını dəstəkləmək üçün yaşıdları ilə birgə təlim prosesində iştirak etmələri daha məqsədəuyğundur. Sağlamlıq imkanları məhdud şagirdlərin dərs strategiyalarına daxil olan qeyd etdiyimiz məsələlər, ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. Bu, həmçinin təlim-tərbiyə prosesində SİM uşaqların hər birinin müstəqil bir fərd kimi öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib.

Təlim strategiyalarının tətbiqi SİM uşaqlarda aşağıdakı keyfiyyətləri formalaşdırır:

- ***Özünüdərketmə –*** Təlim strategiyalarının şagirdlərə uyğun şəkildə qurulması, onların öz öyrənmə üsullarını və ehtiyaclarını dərk etməsinə şərait yaradır. Bu isə daha səmərəli öyrənməyə zəmin hazırlayır.
- ***Əlaqə bacarıqları*** – Müxtəlif birgə öyrənmə imkanları uşaqlara sosial bacarıqları inkişaf etdirməyə imkan verir.
- ***Özünüidarəetmə*** – Çevik təlim mühitləri uşaqların öz öyrənmə proseslərini idarə etmək bacarıqlarını təkmilləşdirir.
- ***Sosial maarifləndirmə –*** İnklüziv mühitlər empatiya və fərqliliklərə hörmət kimi dəyərləri təşviq edir [İnklüziv təhsil (məlumat kitabçası)., 2018].

İnklüziv öyrənmə mühiti uşaqların emosional intellektini, empatiyanı inkişaf etdirməyə və müxtəlifliyə dəyər verməyə təsir edir. Bu vahid və inklüziv yanaşma yalnız akademik deyil, həmçinin emosional və sosial bacarıqların formalaş-

masına da mühüm təsir göstərir. Belə bir modelin tətbiqi, təhsil tədqiqatlarında əldə olunan nailiyyətlərə əsaslanaraq, öyrənmə təcrübəsini fərdiləşdirməyə və hər bir uşağın potensialını maksimum səviyyədə inkişaf etdirməyə şərait yaradır. Təhsil sahəsində bu yeniliklərin qəbul olunması və həyata keçirilməsi nəticəsində təhsil işçiləri inklüziv və keyfiyyətli təhsil sisteminin formalaşdırılmasında əhəmiyyətli işlər görə bilərlər. Universal öyrənmə dizaynı, müəllimlərə bütün uşaqlar üçün inklüziv və cəlbedici öyrənmə mühiti yaratmağa kömək edə biləcək güclü çərçivədir.

**Məqalənin aktuallığı.** Xüsusi qayğıya ehtiyacı olan uşaq kateqoriyalarına uyğun sinif strategiyalarının hazırlanması, bu gün bir çox ölkələrin təhsil siyasətində inklüziv təhsilin inkişafı istiqamətində ən başlıca prioritetlərdən biri kimi qəbul edilir. Həmçinin, xüsusi qayğıya ehtiyacı olan uşaqların digər uşaqlarla birlikdə təhsil alması, onlar üçün əlverişli təlim mühitinin qurulması, hazırkı dövrün aktual problemlərindən biri kimi araşdırılmışdır. Belə uşaqlar öz sağlam həmyaşıdları kimi kollektivə adaptasiya olunaraq bir fərd, cəmiyyətə lazımlı insan olduqlarını hiss edirlər.

**Məqalənin elmi yeniliyi.** Məqalədə SİM şagird kateqoriyalarına uyğun sinif strategiyasının qurulmasının təşkili və yollarının müvəffəqiyyətlə həyata keçirilməsinə xüsusi əhəmiyyət verilmişdir. Bu işin elmi əsaslar üzərində qurulması xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi və cəmiyyətə daha sürətli adaptasiyası üçün daha məqsədəuyğun olduğu qeyd olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti.** SİM şagird kateqoriyalarına uyğun sinif strategiyasının qurulmasında və onların inkişafının nəzərə alınmasında məqalədə irəli sürülən təklif və nəticələr olduqca əhəmiyyətlidir. Bu yanaşmaların köməyi ilə həm müəllimlər, həm də valideynlər, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin fərdi inkişafı və təlim-tərbiyəsinin uğurlu təşkilinə töhfə verə bilərlər.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Ağayeva, T. H. (1999). Ümumtəhsil məktəblərində loqopedik işin təşkili. Bakı, ADPU. 238 s.
2. Avropa İttifaqı, Azərbaycan Təhsil Nazirliyi, UNICEF & Regional İnkişaf İctimai Birliyi. (2019). İnklüziv sinifdə təlimin təşkili: İxtisasartırma proqramı üçün oxu materialı. Bakı.
3. Azərbaycan Respublikası. (2001). “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikasının 2001-ci il, 5 iyun tarixli, 136-II nömrəli Qanunu.
4. Azərbaycan Respublikası. (2017). 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (Bakı, 14 dekabr).
5. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2015, yanvar 19). “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (№ 12s). Bakı.
6. Azərbaycan Respublikası Təhsil Nazirliyi & Azərbaycan Müəllimlər İnstitutu. (2013). İnklüziv təhsil: Bakalavr pilləsi hazırlığı üçün dərs vəsaiti. Bakı.
7. Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ). (2021). Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili (metodik vəsait). Bakı.
8. Demokratik Təşəbbüslər İnstitutu (IDI). (2018). Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi. Bakı.
9. Regional İnkişaf İctimai Birliyi (RİİB). (2018). İnklüziv təhsil (məlumat kitabçası). Bakı.
10. Regional İnkişaf İctimai Birliyi (RİİB) & UNICEF. (2019). İnklüziv təhsil üzrə müəllim inkişaf proqramları. Bakı.

# WAYS TO DEVELOP PHONEMIC PERCEPTION IN THE FORMATION OF CHILDREN’S SPEECH DURING THE PRESCHOOL PERIOD

**Yegana Mammadova**

Azerbaijan State Pedagogical University
Head teacher of the department of pedagogy of preschool education,
P.h.D. in Pedagogy
E-mail: yeganememmedova.doc@gmail.com
https://orcid.org/00000-0001-8319-8849

**Abstract.** This article explores the methods for developing phonemic perception and sound pronunciation skills in preschool children. It analyzes the purpose and essence of the methods applied during the process of speech development and examines the ways in which these methods are implemented. Furthermore, the article investigates the characteristic approaches to fostering listening and comprehension skills in preschool-aged children, as well as the development of speech through the use of all grammatical tools of the language. The use of didactic games is recommended to support the development of speech and auditory habits in children. It is noted that, in small groups, children can be taught to differentiate the intensity and quality of sounds by using various toys and musical instruments. In preschool preparatory groups, specially designed activities aimed at enhancing speech development are organized to make these exercises more advanced. The main goal of such activities is to systematize the knowledge and skills acquired by the child in the family, nursery, or preschool institution, to develop their abilities through the learning process, and to accelerate this development.

**Keywords:** preschool institution, preschool-aged children, native language, phonemic perception, speech comprehension.

**DOI:** 10.30546/2709-2488.2.2025.0037
**To cite this article:** Mammadova Y. (2025). Ways to develop phonemic perception in the formation of children’s speech during the preschool period. *Journal of Preschool and Primary Education*, Vol. 251, Issue II, pp. 75-87.
**Article history:** received – 12.05.2025; accepted – 17.06.2025.
CC BY 4.0. Authors expressly acknowledge the authorship rights of their works and grant the journal the first publication right under the terms of the Creative Commons Attribution License International CC-BY, which allows the published work to be freely distributed to others, provided that the original authors are cited and the work is published in this journal.

# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ UŞAQLARIN NİTQİNİN FORMALAŞDIRILMASINDA FONEMATİK QAVRAMANIN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**Yeganə Məmmədova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: yeganememmedova.doc@gmail.com
https://orcid.org/00000-0001-8319-8849

**Annotasiya.** Məqalədə məktəbəqədər dövrdə uşaqlarda fonematik eşitmə və səs tələffüzü bacarığının formalaşdırılması yolları araşdırılır, uşaqların nitqinin inkişaf etdirilməsi zamanı tətbiq olunan metodların mahiyyəti və məqsədi təhlil edilir, reallaşdırılması yolları tədqiq olunur. Bundan əlavə, məqalədə məktəbəqədər dövrdə uşaqlarda dinləmə, dərketmə bacarıqlarının, eyni zamanda dilin bütün qrammatik vasitələrindən istifadə edərək nitqin inkişaf etdirilməsinin səciyyəvi yolları araşdırılır. Uşaqlarda nitq-eşitmə vərdişlərinin inkişafını təmin etmək məqsədi ilə didaktik oyunlardan istifadə edilməsi tövsiyə olunur. Qeyd edilir ki, kiçik qruplarda müxtəlif oyuncaqların, musiqi alətlərinin səsləndirilməsindən istifadə etməklə uşaqlara səsin gücünü və xarakterini fərqləndirməyi öyrətmək mümkündür. Məktəbəhazırlıq qruplarında isə bu tip fəaliyyətləri bir qədər mürəkkəbləşdirmək məqsədilə nitqin inkişafına yönəlmiş xüsusi məşğələlər təşkil edilir. Belə məşğələlərdə əsas məqsəd uşağın ailədə, körpələr evində, məktəbəqədər müəssisədə əldə etdiyi bilik və bacarıqları sistemləşdirmək, təlim prosesi vasitəsilə qabiliyyətini inkişaf etdirmək və bu prosesi sürətləndirməkdir.
**Açar sözlər:** məktəbəqədər müəssisə, məktəbəqədər yaşlı uşaqlar, ana dili, fonematik eşitmə, nitqi qavramaq.

**DOI:** 10.30546/2709-2488.2.2025.0037
**Məqaləyə istinad:** Məmmədova Y. (2025). Məktəbəqədər dövrdə uşaqların nitqinin formalaşdırılmasında fonematik qavramanın inkişaf etdirilməsi yolları. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (251), səh. 75-87.
**Məqalə tarixçəsi:** göndərilib – 12.05.2025; qəbul edilib – 17.06.2025.
CC BY 4.0. Müəlliflər açıq şəkildə öz əsərlərinin müəlliflik hüquqlarını təsdiq edir və jurnala Creative Commons Attribution 4.0 International (CC BY 4.0) lisenziyası çərçivəsində ilk nəşr hüququnu verirlər. Bu lisenziya, əsərin bu jurnalda yayımlandığı və orijinal müəlliflərə istinad edildiyi halda, onun sərbəst şəkildə digər şəxslər tərəfindən yayılmasına icazə verir.

## Giriş / Introduction

Öyrənmə və tərbiyə prosesində söz əsas ünsiyyət vasitəsi olduğundan, dil təlim və tərbiyə işində mühüm vasitələrdən biri kimi kimi çıxış edir. Uşağın təlim-tərbiyəsinin mahiyyəti, təfəkkürünün inkişafı və şəxsiyyətinin formalaşması onun ana dilinə necə yiyələnməsindən asılıdır. Müşahidə və təcrübələr göstərir ki, məktəbəqədər müəssisələrdə təlim-tərbiyə işlərinin uğuru, ilk növbədə, uşağa ana dilini mükəmməl şəkildə öyrətməkdən aslıdır. Müstəqillik yolunda inamla addımlayan Azərbaycanda böyüyən nəslin tərbiyəsi daim diqqət mərkəzində saxlanılır. Nəzərə alınır ki, bu gün məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə alan uşaqlar ölkənin dövlət quruculuğunda, onun idarə olunmasında, ideya-siyasi bazasının möhkəmləndirilməsində yaxında iştirak edəcəklər.

Məktəbəqədər dövrdə fonematik qavrayışın inkişaf etdirilməsi uşaqlarda şifahi nitqin və yazı prosesinin ayrılmaz hissəsidir. Bu dövrdə uşaqlar nitq fəaliyyətini fəal şəkildə ustalıqla idarə etməyə başlayırlar. Bunun üçün onların fonematik qavrayışının inkişafına xüsusi həssaslıqla yanaşmaq tələb olunur. Nitq səslərini ayırd etmək bacarığı sonrakı bütün nitq və idrak proseslərinin formalaşmasının əsasını təşkil edir. Fonematik qavrayışın inkişafı uşaqlara nitqin ayrı-ayrı, semantik səslərdən ibarət olduğunu anlamağa imkan verir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, yaxşı inkişaf etmiş fonematik qavrayışlı uşaqlar savadlı yazmağı və oxumağı daha asan öyrənirlər. Məktəbəqədər dövrdə bu qabiliyyət tədricən, oyun, ünsiyyət və məqsədyönlü fəaliyyət prosesində formalaşır [Kərimov, Y., 2002].

Fonematik qavrayışın inkişafına lazımi diqqət yetirən uşaqlar daha yaxşı öyrənmə nəticələri nümayiş etdirirlər. Səsləri daha yaxşı fərqləndirir, yazını daha asan öyrənir və oxumaq bacarıqlarını daha sürətli inkişaf etdirirlər. Bundan başqa, belə uşaqların məktəb yaşında nitq və yazı ilə bağlı problemləri də az olur. Tərbiyəçi ilk gündən uşaqların fonematik eşitmə qabiliyyətinin inkişafı qayğısına qalmalı, onları ana dilinin bütün səslərini düzgün eşitmələri və səslənməsinə görə yaxın olan səs və sözləri fərqləndirə bilmələrini müəyyənləşdirməlidir. Uşaq ədəbi dildə danışığı dinləməli, dərk etməli, dilin bütün vasitələrindən istifadə etməklə məzmununu verməyi bacarmalıdır. Nitq eşitmənin əsas komponentləri, əvvəla, fiziki eşitmə – başqa sözlə, müxtəlif yüksəklik diapozonunda səslənən nitqi qavramaq qabiliyyətidir. İkincisi, fonematik eşitmə – başqa sözlə, nitqin bütün səslərini fərqləndirmək və tələffüz etmək onları dilimizin fonetik sisteminə aid etmək qabiliyyətidir. Üçüncü komponent isə yüksək səsləri eşitmə və ton hissi ilə əlaqəlidir. Ritm hissi də bu prosesdə mühüm rol oynayır və sürəti hiss etmə qabiliyyəti ilə sıx bağlıdır.

Bütün bu komponentlər birlikdə nitqeşitməni inkişaf etdirir.

Fonematik qavrayış – doğma dilin səslərini ayırd etmək və sözlərin səs tərkibini təyin etmək bacarığıdır. Bu bacarıq bir il yarımdan 5 ilə qədər inkişaf edir. Tam fonematik qavrayış səslərin aydın tələffüzü və sözlərin düzgün hecalı quruluşunu təmin edir. Yazmağı öyrənmək prosesində uşağın sözün səs tərkibini dəqiq dərk etməsi, hər bir səsi təhlil etməyi və onu digər səslərdən fərqləndirməyi bacarması vacibdir. Fonematik qavrayışı düzgün inkişaf etmiş uşaqlar bütün nitq səslərini aydın şəkildə fərqləndirdikləri üçün daha düzgün danışmağa başlayırlar. Bu bacarıqda problemləri olan uşaqlar səsləri tələffüz etməkdə çətinlik çəkir, eyni səsli fonemləri ayırd edə bilmədikləri üçün sözlərdə eyni və ya oxşar səslərdən istifadə edirlər. Nəticədə, səslə bağlı yanlışlıqlar yazı prosesində öz əksini tapır.

Tərbiyəçi-müəllimlər uşaqlarda fonematik qavrayışın inkişaf etdirilməsi məqsədilə aşağıdakı fəaliyyətləri həyata keçirməlidirlər:

- ətraf aləmin və nitqin səslərinə maraq oyatmaq;
- qeyri-səlis səsləri ayırd etmək;
- səsin tonunu, gücünü, tembrini ayırd etmək;
- səsin mənbəyini və istiqamətini müəyyənləşdirmək;
- səs tərkibinə yaxın olan sözləri fərqləndirmək [Kərimov, Y., 1982].

Erkən yaşdan başlayaraq uşaqlarda fonematik qavrayışın inkişaf etdirilməsi məqsədilə tərbiyəçi-müəllimlərin bilməli olduqları əsas məqamlar:

- uşaqlar təbiətin və ətraf aləmin (yağışın, küləyin, ildırımın, avtomobillərin, təyyarələrin və s.) səslərinə qulaq asmalı;
- uşaqlara müxtəlif oyuncaq musiqi alətləri göstərilməli, bu alətlərin hər birinin səsini dinləmələri təmin edilməli, daha sonra bir alətdə çalaraq uşaqlardan eşitdikləri səsə əsasən hansı musiqi alətinin səsləndiyini təxmin etmələri istənilməli;
- heyvanların səsləndirdiyi səslər müzakirə edilməli;
- uşaqlara oyunun köməyi ilə səsin istiqamətini təyin etmək öyrədilməli;
- uşaqlara səsin əhəmiyyətini göstərmək üçün adları eyni fonemdə fərqlənən obyektlərin şəkilləri olan kartlardan istifadə edilməli.

Uşaqlarda fonematik qavrayışda çatışmazlıqların vaxtında müəyyən edilməsi gələcəkdə çətinliklərin aradan qaldırılmasına kömək edəcək. Fonematik qavrayışın inkişafı məktəbəqədər təhsil dövründə uşağın uğurla uyğunlaşmasında və təlimə hazırlanmasında əsas rol oynayır. Fonematik qavrayış nəinki uşaqlara daha sürətli oxumağı və yazmağı öyrənməyə kömək edir, həm də ümumi nitq və koqnitiv inkişafa təkan verir. N.N.Jinkinin fikrincə, yenicə doğulmuş uşaqda eşitmə, nitq-hərəki analizatorlar hələ assosiativ əlaqələrlə təmin olunmur. Nitqin müntəzəm inkişafına yalnız sözlərin tələffüzü mexanizmi tam formalaşdıqdan sonra başlamaq olar.

## Əsas hissə / Main part

Məktəbəqədər yaş dövründə uşaqlar arasında nitq səslərinin qüsurlu tələffüzü çox geniş yayılmış nöqsanlardan biridir. Bu dövrdə uşaqlarda ayrı-ayrı səslərin və ya səs qruplarının tələffüz pozuntusu müşahidə edilir. Belə uşaqların nitqinin ətraflı müayinəsi zamanı məlum olur ki, nitqin elementləri tam formalaşmayıbdır: səs tələffüzü, ritmik - heca quruluşu, fonemlərin qavranması. Xaraktercə, bu cür əyintilər oxu və yazı vərdişlərinin mənimsədilməsi üçün zərərli faktorlardır.

Fonematik inkişafda geriləmə və fonemlərin düzgün tələffüzü ilə əlaqədar fərqli nitq pozuntuları olan şagirdlərdə ana dilinin səs tələffüz sisteminin inkişaf etməsi prosesində pozuntular müşahidə olunur. Bu cür xarakterizə edilən əsas əlamətlər – bir qrup səslərin diferensiallaşdırılmadan tələffüzü; bir səsin başqa səslə əvəz olunması kimi müşahidə olunur. Sadə artikulyasiyalı səsin mürəkkəb artikulyasiyalı səslə əvəz olunması nitqin erkən dövrü üçün xarakterik hal sayılır. Eyni zamanda səslərin qarışması bir sıra səslərin müxtəlif sözlərdə dəyişkən istifadə edilməsi ilə xarakterizə olunur. Nitqin səs tərəfi ilə bağlı bu tip pozuntular valideynlərdən və pedaqoqlardan xüsusi diqqət tələb edir və fonematik öyrənmənin inkişafdan geri qaldığını göstərir. Məşhur fizioloq İ.M.Seçenov da bu məsələyə toxunaraq qeyd etmişdir: “Eşitmə hissi digər hisslərə nisbətən əsas üstünlüyə malikdir, çünki o, artıq erkən uşaqlıq dövründə sinə, qırtlaq, dil və dodaq əzələləri ilə sıx şəkildə əlaqələnir. Buna görə də səs yaddaşı hiss etmə ilə daha da möhkəm olur” [Kərimov, Y., 2003].

Fonetik-fonematik inkişafdan qalması olan uşaqları vaxtında aşkar etdikdə və onlarla xüsusi təşkil edilmiş loqopedik iş aparıldıqda nitq defektini aradan qaldırmaqla yanaşı, onların məktəb təliminə tam hazırlığı da yerinə yetirilir.

Fonematik qavrama uşaqların öz nitqlərini təhlil etmək fəaliyyətinin inkişafını nəzərdə tutur. Yəni uşaq öz nitqində cümlələri, cümlələrdə sözləri, sözlərdə hecaları, hecalarda səsləri fərqləndirməyi, həmçinin səslərdən heca, hecalardan sözlər, sözlərdən cümlələr, o cümlədən mətn tərtib etməyi bacarmalıdır. Bütün bunlarla yanaşı, o, sözün tərkibindəki ayrı-ayrı hecaları fərqləndirmək və onların yerini müəyyənləşdirmək qabiliyyətinə də malik olmalıdır. Bu çətin vəzifəni uşaq yalnız tərbiyəçi-müəllimin rəhbərliyi altında öyrənə bilər.

Uşaqlarda dinləmə bacarığını inkişaf etdirmək üçün ilkin mərhələdə 10 dəqiqə müddətində fasiləsiz qulaq asmaq vərdişləri formalaşdırılmalıdır. Sonrakı mərhələlərdə isə dinləmə materialının həcmi tədricən artırılmalı və dinləmə müddəti 20-25 dəqiqəyə qədər uzadılmalıdır. Nitqin düzgün eşidilməsi və qavranılması üçün uşağa hər şeydən əvvəl aydın və düzgün tələffüz nümunələri təqdim olunmalıdır. Eşitmə qabiliyyətinin inkişafı məqsədilə monoloji nitq ifadəli və

emosional baxımdan dolğun şəkildə təmin edilməlidir.

Fonematik qavrayışın formalaşmasına dair işlərdə aşağıdakı mərhələləri fərqləndirmək olar:

- ***Qeyri-səlis səslərin tanınması.*** Bu prosesdə uşaqlarda oyun və məşğələlərin xüsusi seçilmiş sistemlə keçirilməsi qeyri-nitq səslərinin tanınması və diferensiallaşdırılması qabiliyyətinin formalaşmasını təmin edir. Bu fəaliyyət prosesi uşaqlarda dinləmə diqqətini inkişaf etdirir ki, bu da, öz növbəsində, onların nitq səslərini bir-birindən ayırdetmə bacarığını daha da gücləndirir. Məsələn: “Gəlin, qulaq asın”, “Kim nə eşidəcək?” oyunlarını qeyd etmək olar. Bu oyunların keçirilməsində əsas məqsəd “təbiətin səslərini” uşaqlara tanıtmaq və onları fərqləndirməyi öyrətməkdir.
- ***Eyni səs, söz və ifadələrin müxtəlif tələffüz variantları üzərində səsin tonu, gücü və tembrini ayırd etmək.*** Bu mərhələdə uşağa intonasiyanı başa düşməyi öyrətmək və emosional nitq tonlarını ifadə etmə bacarığını ustalıqla formalaşdırmaq lazımdır. Məsələn: “Ucadan və sakit” oyunu keçirmək səsin tonunun və tembrinin inkişafı üçün əsasdır.
- ***Səs tərkibinə görə yaxın olan sözləri fərqləndirmək.*** Nitq inkişafı prosesində oyun və məşğələlər sözlərin diferensiallaşdırılması şərtlərinin tədricən mürəkkəbləşdirilməsi məqsədi ilə istifadə olunur: bir neçə səslə fərqlənən sözlərdən yalnız bir səslə fərqlənən sözlərə qədər oyunları təşkil etmək olar. “Səsi tap”, “Müqayisə et” oyunlarında əsas məqsəd ümumi və fərqli səsləri tapmaq, sözləri səs tərkibi ilə müqayisə etməyi öyrətməkdir.
- ***Sözdəki səslərin ardıcıllığı, sayı və yerini müəyyən etmək.*** Fonematik qavrayışın mürəkkəb formalarının əmələ gəlməsi zamanı – səsin ardıcıllığını, kəmiyyətini və digər səslərlə müqayisədə deyilmiş sözdə səsin yerini müəyyən etmək əsasdır [Hacıyeva Ə., 1992].

Uşaqlarda səs tələffüzünün səviyyəsi müəyyən edildikdən sonra onların fonematik eşitmə bacarığının – yəni səsləri eşidərək qavrama və bir-birindən fərqləndirmə bacarığının qiymətləndirilməsi zəruridir. Xüsusilə bu, o səslərə aiddir ki, onlar artikulyasiyaya görə oxşar və ya səslənməsinə görə yaxındırlar. Buna görə də bütün korreksiya edən fitli və fısıltılı (sa-sa, za-ya, sa-za və s.), cingiltili və kar (da-ta, na-ba, qa-ka), (ra-la, ri-li və s.) səslərin fərqləndirilməsini yoxlamaq lazımdır. Tərbiyəçi-müəllim, loqoped bu məqsədlə uşağa onun ardınca müxtəlif pozisiyalı hecaları təkrar etməyi tapşırmalıdır. Əgər uşaq bəzi səsləri düzgün tələffüz etmirsə, loqoped həmin səsləri fərqləndirmək məqsədilə təqdim edilən heca sırasından (sa, ya, ca) “şa” hecasını eşidən kimi onun əl qaldırmasını və ya ayağa qalxmasını tələb etməlidir. Sonra isə uşağın səslənməsinə görə oxşar, lakin mənaca müxtəlif olan sözləri fərqləndirmək bacarığı yoxlanmalıdır. Məsələn: saz, tüfəng, söz, pələng, göz, çələng, göz, gül, kitab, qutab, göl və s. belə yoxla-

ma müxtəlif üsullardan istifadə edilməklə aparıla bilər. Məsələn, uşağa verilən şəkillər arasından uyğun olanı seçmək və ya verilmiş sözün mənası barədə danışmaq kimi tapşırıqlar verilə bilər. ("De görüm, saz nədir?; "Bu səs nədir?"). Eləcə də uşaqlardan oxşar sözləri təkrar etməyi tələb etmək olar: Lalə-Zalə-Halə; tar-dar-qar; qoyun-boyun, xörək-çörək və s. Tətbiq olunan bu metod uşağın həm fonematik qavrayışını, həm də diqqətini və eşitmə yaddaşını effektiv şəkildə formalaşdırır [Kərimov, Y., 2009].

Məktəbəqədər yaşlı uşaqların sözlərdəki səsləri necə eşitdiyi və bunları seçməyi bacarıb-bacarmadığı yoxlanılmalıdır. Fonematik qavramanın yoxlanması üçün tərbiyəçi-müəllimlər "Mağaza" və "Sehrli torba" didaktik oyunlarından istifadə etməli, bu yoxlamanı orta, böyük və məktəbəhazırlıq qruplarında həm fərdi, həm də qrup şəklində həyata keçirməlidirlər. Tapşırığın mərhələləri uşağın əvvəlcə deyilən səsi söz daxilində tanıması, sonra isə sözlər arasında həmin səsi ayırd etməsi ilə aparılır. Onlar sözlərin əvvəlində, ortasında və sonunda eşitdikləri səsi söyləməlidirlər. Tapşırığın məqsədi aşağıda təqdim olunur:

*əvvəlcə uşaqlar:*

1) verilmiş səsi sözün əvvəlində tapmaq;
2) verilmiş səsi sözün daxilində tapmaq.

*sonra uşaqlar:*

1) sözün əvvəlində gələn səsləri tapmaq;
2) sözün ortasında gələn səsləri tapmaq;
3) sözün sonunda gələn səsləri tapmaq;
4) sözü səslərə ayıraraq tam şəkildə təhlil etmək [Kərimov, Y., 2009].

Seçilən sözlər səs tərkibi sadə və uşaqlar üçün tanış olan sözlərdən ibarət olmalıdır. Tərbiyəçi-müəllim uşaqlardan "mağazada" olan oyuncaqların hansının adının əvvəlində "q" səsi olduğunu söyləməyi xahiş edir. Tərbiyəçi-müəllim "q" səsini tələffüz edir, adı "q" səsi ilə başlanan oyuncağı necə tapmaq lazım olduğunu uşaqlara izah edir. Onlara "mağazada" olan bütün oyuncaqların adını söyləyir və təklif edir ki, adı "q" səsi ilə başlanan oyuncağı tapsınlar. Oyunda istifadə olunan oyuncaq və vəsaitlər bunlardır: heyva, nar, yumurta, divan, stol, stul, top, maşın, qayıq, qayçı, qaşıq, bıçaq, kukla, torba, şar, raket balıq, fırfıra, quzu, it, tülkü, pişik. Bu yolla oyun davam etdirilir.

Didaktik oyunlar həm böyük, həm də məktəbəhazırlıq qruplarında aşağıdakı plan üzrə aparılır:

1. Giriş müsahibəsi.
2. Oyun qaydasının izahı.
3. Oyunun gedişi.
4. Məşğələnin yekunlaşdırılması.

Uşaqlarda nitq-eşitmə vərdişlərinin inkişafını təmin etmək məqsədi ilə di-

daktik oyunlardan istifadə edilməlidir. Kiçik qrupda müxtəlif oyuncaqların, musiqi alətlərinin səsləndirilməsindən istifadə etməklə səsin gücünü və xarakterini fərqləndirməyi öyrətmək mümkündür. Uşaqlar görmədikləri əşyanın, çalğı alətlərinin səsini eşidib nəyin səsi olduğunu bildirmək, səsə görə yoldaşını tanımaq üzrə məşq etməlidirlər. Uşaqlar bu yaş dövründə səsləri yamsılamağı sevirlər. Onların bu marağından istifadə etməklə heyvan, quş, həşərat səslərini, təbiət hadisələrindən bir çoxunun səsinin öyrədilməsi də mümkündür. Məsələn, ş-ş-ş-suyun şırıltısı; s-s-s-nasosla havanın verilməsi; z-z-z-milçəyin vızıltısı; j-j-j-may böcəyinin səsi; r-r-r-motorun səsi və s. Sonra sözü əvvəldə, ortada və axırda belə səsləri uzatmaqla ayırmaq mümkündür: cır-r-r-r; mə-ə-ə-ə; z-z-z-zal; al-l-l-ma; ş-ş-ş-şar; f-f-f-fil; Məs-s-s-s-mə və s.

Böyük və məktəbəhazırlıq qruplarında bu cür tapşırıqları bir qədər mürəkkəbləşdirmək məqsədəuyğundur. Uşaqlar üçün sözlərdəki səslərin ardıcıllığını müəyyən etmək xüsusi əhəmiyyət daşıyır. Bu bacarığın formalaşması üçün, onlara verilən sözlərdə nə qədər səs varsa, bir o qədər dama çəkmələri tapşırılmalıdır. Məsələn, “ana” sözü üçün üç dama çəkilməlidir. Uşaq sıra ilə hər bir hərfi tapdıqca üstünə bir kağız və ya dairə qoyur, hərfi tapmayanda dama boş qalır. Belə məşğələlər üçün əvvəlcə ana, ata, nar, tar, şar; sonra Tutu, Nuru; daha sonra alma, armud, heyva; sonra tarla, maral və s. sözlər götürülməlidir.

Bu yaş dövründə uşaqlara hərflərin yerinin dəyişməsi ilə əlaqədar məşğələlərin keçirilməsi də vacibdir. Bu zaman təkhecalı sözlərin əvvəlində, ortasında və sonunda hərfin yenisi ilə əvəz edilməsi mümkündür. Hərflər elə əvəzlənməlidir ki, yeni məna alınsın. Məsələn:

- *əvvəldə: tar-dar, şar, yar, var, qar;*
- *ortada: tar-tor, tur, tir, tər, tır;*
- *sonda: tar-tay, tax, tap, tac, tam və s.*

Daha sonra sözün əvvəlinə və sonuna hərf əlavə etməklə yeni sözün alınması üzrə məşq etmək faydalıdır:

- *əvvəldə: al-şal, sal, mal, xal, zal, kal, val;*
- *sonda: yu-yun, yum; ye-yel, yem, yen, yer, yel.*

Tərbiyəçi-müəllim uşağın qarışdırdığı səsləri və sözləri müəyyənləşdirdikdən sonra sadə çalışmalar üzrə z-s, d-t, b-p, q-k, g-k, q-d, v-f, m-n, r-y və s. səsləri növbə ilə deyilməli, əvvəl və sonra hansı səslərin tələffüz edildiyini uşaqlardan əzbər deməsini tələb etmək lazımdır. Bu zaman uşağın səhvlərinə düzəliş verilir. Səslərin düzgün tələffüzünü həyata keçirmək üçün şəkillərdən də istifadə etmək olar. Bu zaman tərbiyəçi-müəllim “şar, şal, dəsmal, qaşıq, kasa” və s. şəkilləri göstərib, adlarını xəbər almaqla “s” və “ş” səslərinin düzgün eşidilməsi üzrə iş apara bilər. Uşaqlar praktik yolla öyrənməlidirlər ki, hər bir səs sözdə düşdüyü şəraitdən, mövqedən asılı olaraq müxtəlif cür səslənə bilər.

Məktəbəqədər dövrdə uşaqların nitq-eşitməsini yoxlamaq üçün “Telefon” oyunu keçirmək daha məqsədəuyğundur. Oyunun qaydası belədir: uşaqlar sıra ilə düzülmüş stullarda otururlar. Sıranın başında, birinci stulda əyləşən tərbiyəçi yanındakı uşağın qulağına astadan bir söz deyir. Məsələn: parovoz, paroxod, cücə, pişik və s. həmin uşaq da eşitdiyi sözü yanındakı yoldaşının qulağına deməlidir. Beləliklə, bir-birinə ötürmə yolu ilə həmin söz uşaqların hamısının qulağına deyilir. Sonuncu uşaq eşitdiyi sözdən asılı olaraq onun səsini və hərəkətini yamsılayır. Bundan sonra eşitdikləri sözü uşaqların hamısı növbə ilə deyirlər. Birinci deyilən sözü hansı uşaq qarışıq salarsa, o uşaq durub sıranın axırında oturur və o biri uşaqlar hərəkət edərək birinci uşağın yerini tuturlar.

Sözü səhv deyən uşaq öz yerindən durub sıranın axırında oturur, onun yerini isə yanında oturan uşaq tutur.

Səsin tələffüzü üzrə işə ehtiyatla yanaşmaq lazımdır. Hər bir səsin sözdə aydın tələffüzü, ümumiyyətlə, səslərin düzgün tələffüzü ilə orfoepik vəzifələri ilə əlaqələnir. Sözlərin orfoepik normalara uyğun tələffüzü, ilk növbədə, yerli şivə xüsusiyyətlərinə, dialektizmlərə yol verilməməsi kimi nəzərdə tutulur. Müşahidələr göstərir ki, bir çox ailələrdə uşaqların tərbiyəsində, o cümlədən nitqinin formalaşmasında nənə-babanın yaxud digər yaşlıların rolu böyükdür. Onlar ünsiyyət prosesində bir çox hallarda dialektizmlərə üstünlük verdiyindən bu, uşaqların nitqinə güclü təsir göstərir. Ailədə altı yaşadək öyrəndiyi danışıq tərzi uşaq üçün çox əziz olur. O, məktəbə gedəndən sonra bilmir, kimə inansın: nənə-babasına, ata-anasına, yoxsa müəllimə. Ona görə də, ilk növbədə, uşağın nitqinə çox ehtiyatlı yanaşmaq, danışarkən ədəbi tələffüz normalarını gözləmək lazımdır. Bunun üçün istər ailədə, istərsə də məktəbəqədər müəssisələrdə ədəbi dilin normalarına əməl olunması, uşaqlara planlı şəkildə Azərbaycan dilinin tələffüz qaydalarının öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, tərbiyəçi-müəllimin özünün ədəbi dilin orfoepik normalarına necə yiyələnməsindən asılıdır. Tərbiyəçi-müəllim tələffüz normalarını öyrənməklə öz nitq mədəniyyətini yüksəltməli, danışarkən həmin qaydalara əməl etməlidir. Uşağın nitqi üzərində işləyərkən onların tələffüz sürətini də nizama salmaq lazımdır. Onların danışığındakı tələskənlik tələffüzü pisləşdirir, bəzən səslərin, hecaların, hətta sözlərin düşməsi ilə nəticələnir. Bununla da nitqin səlisliyi və dəqiqliyi pozulur.

